Xalqın qəzeti!

# Xalq qəzeti

№ 71 (30475) 6 aprel 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Qərb Cənubi Qafqazda prosesləri çox təhlükəli məcraya yönəldir

### Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin millət vəkili Mövlud Çavuşoğlunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edib.**

Dövlətimizin başçısı Mövlud Cavuşoğluya ölkəmizdə böyük hörmət bəsləndiyini vurğulayaraq, onun bütün dövrlərdə Azərbaycanın yanında olmasını yüksək qiymətləndirdiyini bildirdi və xalqımızın bunu çox dəyərləndirdiyini qeyd etdi. Prezident İlham Əliyev vurğuladı ki, xüsusilə İkinci Qarabağ müharibəsi zamanı Mövlud Çavuşoğlu müntəzəm surətdə çox önəmli açıqlamalar verib. O, bütün dünyaya Türkiyənin səsini çatdırıb ki, Azərbaycan tək deyil, Türkiyə onun yanındadır. Bu açıqlamalar öz növbəsində Azərbaycanın işinə qarışmaq istəyən qüvvələrin qarşısının alınmasında önəmli rol oynayıb.

Dövlətimizin başçısı bu gün Azərbaycan–Türkiyə birliyinin daha da güclənməsinin önəmini qeyd edərək bildirdi ki, hazırda dünyada, o cümlədən Cənubi Qafqazda proseslər çox təhlükəli istiqamətdə gedir və bununla bağlı Azərbaycan haqlı olaraq öz narahatlığını ifadə edir. Belə ki, Cənubi Qafqaz üçün cızılan plan gələcəkdə böyük fəlakətə gətirə bilər.

Azərbaycan Prezidenti bildirdi ki, Qarabağı işğaldan azad etməyimiz, xüsusilə keçən ilin sentyabrında həyata keçirdiyimiz antiterror əməliyyatı bəzi qüvvələri narahat edib. “Mən hər zaman deyirdim və deyirəm ki, biz haqq yolundayıq, öz əzəli torpaqlarımızı bütün beynəlxalq qanunlar çərçivəsində hərbi yolla azad etmişik”, – deyə vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, o vaxtdan bu günədək bizə olan təzyiqlər durmadan davam edir. Avropa Parlamenti təhqirlə dolu çirkin qətnamələr qəbul edib. AŞPA nümayəndə heyətimizi səsvermə hüququndan məhrum edib. Bunlar çox mənfi fəsadlara gətirə biləcək addımlardır və bunun yeganə səbəbi Qarabağı işğaldan azad etməyimizdir.

Bu gün ABŞ, Avropa İttifaqı və Ermənistan arasında Brüsseldə keçiriləcək üçtərəfli görüşə toxunan dövlətimizin başçısı bildirdi ki, bununla Cənubi Qafqaz üçün növbəti təhlükə mənbəyi yaradılır. Halbuki son günlər həm ABŞ-ın, həm də Avropa İttifaqının yüksəkvəzifəli şəxsləri onların təşəbbüsü ilə baş tutan telefon danışıqları əsnasında bizi inandırmağa çalışmışlar ki, bu görüş Azərbaycanın əleyhinə deyil. Prezident İlham Əliyev qeyd etdi ki, lakin biz bunun Azərbaycanın və Cənubi Qafqazda iş birliyinin əleyhinə olduğunu bilirik. Bu, ayırıcı xətlərin yaradılması və ölkəmizi təcrid etmək məqsədi güdür.

Dövlətimizin başçısı bir daha qeyd etdi ki, keçən ilin sentyabrından indiyədək Avropa Parlamentinin, Avropa Şurasının Azərbaycan əleyhinə bəyanatlar verməsi, Ermənistanı Cənubi Qafqazda bir silahlı forpost kimi yaratmaq cəhdləri gələcəkdə çox böyük fəsadlar törədəcək. Buna görə, biz bununla bağlı ABŞ və Avropadakı tərəfdaşlarımıza xəbərdarlıq etmək üçün açıqlamalar verdik.

Geosiyasi vəziyyətin dəyişdiyini deyən Prezident İlham Əliyev belə bir şəraitdə Azərbaycan–Türkiyə birliyinin hər zaman olduğu kimi, bu gün də güclü olmasının vacibliyini qeyd etdi və bu birliyi pozmaq istəyənlərin arzularının puç olacağına əminliyini bildirdi.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən Mövlud Çavuşoğlu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Mövlud Çavuşoğlu hər zaman olduğu kimi, bu dəfə də doğma Azərbaycanda olmalarından böyük sevinc hissi keçirdiklərini dedi. O, İlham Əliyevi prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik edərək, bunu Azərbaycan xalqının dövlətimizin başçısına Qarabağda Zəfər qazanan Ali Baş Komandan kimi yüksək etimadının təzahürü olduğunu dedi.

Azərbaycan Prezidentinin andiçmə mərasimindəki çıxışında Türk dünyasını bizim bir ailəmiz adlandırdığını qeyd edən Mövlud Çavuşoğlu diqqətə çatdırdı ki, dövlətimizin başçısının bu çıxışında Türk dünyasının birliyi ilə bağlı dediyi çox dəyərli fikirlər Türk dünyasında böyük məmnunluqla qəbul olunub. Mövlud Çavuşoğlu vurğuladı: “Siz dünyada önəmli bir lidersiniz və Sizin Türk dünyasının güclənməsi istiqamətində atdığınız addımlar bütün Türk dünyasına bəllidir”.

Prezident İlham Əliyev qeyd etdi ki, həqiqətən də Türk dünyası bizim bir ailəmizdir və biz bu istiqamətdə çalışmalıyıq.

Mövlud Çavuşoğlu dedi ki, Azərbaycanın Qarabağ Zəfərini həzm edə bilməyən qüvvələr var və onlar bu istiqamətdə öz siyasətlərini aparmağa çalışırlar.

***AZƏRTAC***

## Şimali Kipr Prezidenti Türk birliyinə töhfələrinə görə Azərbaycan Prezidentinə təşəkkür edib



**Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Milli Məclisdə Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupun yaradılması ilə bağlı rəsmi X hesabında paylaşım edib.**

Prezident Ersin Tatarın paylaşımında Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupun yaradılması münasibətilə "Türk dünyası bizim ailəmizdir, Türk dünyası ilə əlaqələrimizi gücləndirməliyik", – deyən Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

## İndi bütün yollar Qarabağa aparır...

**Azərbaycanda yol infrastrukturunun inkişafı dövlətin mühüm prioritetləri sırasındadır. Respublikada yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması istiqamətində işlər böyük sürətlə davam etdirilir.**



“Azərbaycan Respublikasının işğaldan azad edilən ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrasına dair Tədbirlər Planına əsasən, 2026-cı ilədək ümumi uzunluğu 2264,5 kilometr təşkil edən 20 avtomobil yolu layihəsinin və Laçın rayonunda Beynəlxalq Hava Limanının tikintisi ilə əlaqədar qazma və torpaq işlərinin yerinə yetirilməsi nəzərdə tutulub.

**(ardı 7-ci səhifədə)**

## Tovuz və Gədəbəy yenə atəşə tutuldu

Səhifə ⇨ 3

## Tehran niyə susur?

### Qərbin Ermənistanda güclənməsinə İranın səssiz qalması müəyyən ehtimallara yol açır



**Aprelin 5-də Brüsseldə Ermənistan baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen və ABŞ Dövlət katibi Antoni Blinken arasında keçirilən görüş öncəsi regionun, demək olar ki, bütün dövlətlərinin rəsmi şəxsləri həmin tədbirə münasibət bildirdilər. Sözsüz ki, ilk reaksiya rəsmi Bakıdan gəldi. Otuz ilə yaxın erməni işğalından böyük əziyyət çəkən, hazırda işğalın nəticələrini təkbaşına aradan qaldıran ölkəmizin görüşdən nahatlıq duyması təbiidir. Azərbaycan hesab edir ki, bu cür təşəbbüslər İrəvanı yeni təxribatlara şirnikləndirə bilər.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə martın 27-də görüşlə bağlı medianın suallarına cavab olaraq bildirdi ki, Avropa İttifaqı və ABŞ tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli, qərəzli xarakter daşıyır və ikili standart yanaşmasına əsaslanır. O qeyd etdi ki, görüş tam şəffaf şəkildə keçirilmir, regional inklüzivlikdən məhrumdur, regionda təşviq edilən və çox ehtiyac duyulan etimad quruculuğuna və inteqrasiyaya ziddir. Bu konfrans erməni tərəfini xoş niyyətlə danışıqlara sövq etmək əvəzinə, regionda yeni bölücü xətlər və “təsir dairələri” yaradır.

***(ardı 4-cü səhifədə)***



## Korrupsioner senatorların Qarabağ separatçıları üçün azadlıq tələbi

### ABŞ ermənisevdalılarının Antoni Blinkenə məktubu və bəşəri dəyərlərlə manipulyasiya

**Düzəlmişdi hər yarağı, qalmışdı saqqal darağı. Bir qrup ABŞ senatorunun ölkənin Dövlət Departamentinin rəhbəri Antoni Blinkenə ünvanladığı birgə müraciəti bu el misalımızın məna çalarları ilə üst-üstə düşür. Müraciətdə nədən söz açıldığını diqqətə çatdıracağıq. Hələlik isə qeyd edək ki, sənədlə bağlı məlumatı yayan Birləşmiş Ştatların Konqresi deyil, ölkədəki erməni lobbi və diaspor təşkilatlarının başında dayanan “Ay Data” Amerika ofisidir.**

İkinci diqqət çəkən məqam müraciətin Dövlət katibi Antoni Blinken, Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen və Ermənistan baş naziri Nikol Paşinyanın dünən Brüsseldə keçirilmiş görüşündən əvvəl tirajlanmasıdır. Görünür, ermənipərəst senatorlar öz aləmlərində sözügedən təmas üçün gündəlik müəyyənləşdirmək fikrinə düşüblər. Beləliklə, senatorlar Ed Markın, Bill Kessidinin, Tom Tillisin və Hari Petersin Birləşmiş Ştatların Dövlət Departamentinin rəhbərinə birgə müraciətlərində Qarabağın artıq canını tapşırmış separatçı rejiminin Azərbaycanda həbsdə olan liderlərinin azad edilmələrinə çağırış səslənib.

***(ardı 6-cı səhifədə)***

## “Rusiya Ermənistanı xarici müdaxilələrdən necə xilas etdi?”

### Və yaxud Azərbaycan ərazilərinin 30 illik işğalına rəvac verən kimlər idi?



**Bu günlərdə Rusiyanın “Beynəlxalq həyat” nəşrində Rusiya Xarici İşlər Nazirliyinin istefada olan baş məsləhətçisi Aleksandr Ananevin Birinci Qarabağ müharibəsinin gizlinlərindən bəhs edən “Rusiya 1990-cı illərdə Ermənistanı müdaxilələrdən necə xilas etdi” sərlövhəli çox maraqlı bir məqaləsi ilə tanış oldum. Yaxın tariximizin qaranlıq səhifələrinə işıq salan bu yazıda kimin dar ayaqda xalqımızın yanında olduğu və kimin bizə arxadan zərbə endirdiyi konkret faktlarla aydın göstərilir. Müəllif yazır:**

***(ardı 11-ci səhifədə)***

# Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən, Bakı şəhəri Qaradağ rayonunun və Salyan rayonunun inzibati ərazilərində yerləşən və Ələt azad iqtisadi zonasının ərazisi qismində müəyyən edilmiş torpaq sahəsinin bu Sərəncama əlavə olunan Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tərtib etdiyi yerquruluşu planında göstərilmiş, dövlət mülkiyyətinə aid 4312,56 hektar təşkil edən hissəsi birdəfəlik, əvəzsiz və daimi istifadə hüququ ilə Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumuna verilsin.

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 aprel 2024-cü il**

# Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 131-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Hüseyn Aida Əli qızı,
Muxtarov Teyyub Asif oğlu.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***
***Sahibə QAFAROVA***

**Bakı şəhəri, 5 aprel 2024-cü il**

# M.K.Həsənovun Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Müşfiq Kamil oğlu Həsənov vəzifəsi dəyişdirilərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***
***Sahibə QAFAROVA***

**Bakı şəhəri, 5 aprel 2024-cü il**

# Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Bakı Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Abbasova Günel Məhərrəm qızı,
Cəfərov Səməd Fəxrəddin oğlu,
Ələkbərov Əfqan Qəzənfər oğlu,
Əliyev Elvin Əhəd oğlu,
Əliyev Emin Zöhrab oğlu,
Hüseynov Zaur Nazim oğlu,
Qarayeva Mehriban Cəfər qızı,
Qocayev Tural Şəmsi oğlu,
Məmmədov Murad Akif oğlu,
Səlimova Səadət Rəşid qızı.

**2.** Tanrıverdiyev Anar Vəzir oğlu vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

**3.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***
***Sahibə QAFAROVA***

**Bakı şəhəri, 5 aprel 2024-cü il**

# Gəncə Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Gəncə Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Əli Toğrul Məhəmməd oğlu,
Mahmudov Faiq Nüsrət oğlu,
Mustafayev Mustafa Əli oğlu.

**2.** Məmmədov Ədil İsa oğlu vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

**3.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***
***Sahibə QAFAROVA***

**Bakı şəhəri, 5 aprel 2024-cü il**

# Sumqayıt Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Sumqayıt Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Hüseynov Mirbahəddin Mirdamət oğlu,
Hüseynzadə Afiq Hüseyn oğlu,
Quliyev İsmayıl Rza oğlu.

**2.** Məmmədova Lətifə Məhyəddin qızı vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

**3.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***
***Sahibə QAFAROVA***

**Bakı şəhəri, 5 aprel 2024-cü il**

**Milli Məclisdə**

# Ermənistanın Cənubi Qafqazda hərbi forposta çevrilməsi yolverilməzdir

**Martın 5- də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyası üzrə növbəti plenar iclası keçirildi. Spiker gündəliyə daxil edilən məsələlər barəsində məlumat verdikdən sonra deputatlar cari məsələlərdən danışdılar.**



Çıxış edənlər ABŞ–Aİ–Ermənistanın Brüssel görüşünə münasibət bildirərək, bunun bölgəyə ciddi təsir göstərəcəyini qeyd etdilər. Elman Nəsirovun sözlərinə görə, ABŞ Dövlət katibi Blinkenin və Avropa Komisiyasının prezidenti Ursula Fon der Lyayenin Prezident İlham Əliyevə zəng vurması onu deməyə əsas verir ki, Qərb Azərbaycan Prezidentini dünyada gedən proseslərə ciddi təsir göstərən lider olduğunu qəbul edir. Deputat Prezidentin telefon danışığı zamanı Azərbaycanın prinsipial mövqeyini ortaya qoyduğunu dedi. Dövlətimizin başçısı bildirib ki, bu görüşdə Azərbaycanı narahat edən məsələlərə biganə qalmayacaq.

Deputat Siyavuş Novruzov son vaxtlar bölgədə yaranmış vəziyyətdən və bu məsələdə Tehranın sərgilədiyi mövqedən söhbət açdı. O qeyd etdi ki, Qərbin Ermənistana göndərdiyi silahlar təkcə Azərbaycana deyil, həm də İran üçündür. Amma Tehran susur. Susmaq bir yana, səfehin biri deyir ki, İsrailin Azərbaycandakı səfirliyini bombalamaq lazımdır. Birincisi, bu, beynəlxalq hüquqa ziddir. İkincisi, İsrailin dünyanın 150 ölkəsində səfirliyi var, niyə İsrailin ABŞ-dəki, ərəb ölkələrində və digər ölkələrdəki səfirliklərini bombalamır, Azərbaycandakı səfirliyini bombalamaq barədə sərsəm fikirlər səsləndirir. Onlar bilmirlər ki, oradakı azərbaycanlılar buna imkan verməzlər.

Sədr cari məsələlərin müzakirəsindən sonra gündəliyə 22 qanun layihəsinin müzakirəsinin daxil edildiyini bildirdi. Dedi ki, ilk 8 məsələ Milli Məclisin qərar layihələridir.

“Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında” Milli Məclisin qərarında dəyişikliklər edilməsi barədə parlamentin qərar layihəsini beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov təqdim etdi. Komitə sədri dedi ki, gələcəyimiz türk dünyası ilə sıx əlaqələrdən keçir. Türk dünyası yeni inkişaf mərhələsinə qədəm qoyur. Bunu nəzərə alaraq, Azərbaycanla Şimali Kipr Türk Cümhuriyyəti arasında parlamentlərarası əlaqələr üzrə işçi qrup yaradılmasına qərar vermişik.

Müzakirələrdən sonra Milli Məclis Azərbaycan–Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupun yaradılması barədə qərar layihəsini və deputat C.Feyziyevi dostluq qrupunun rəhbəri vəzifəsinə təsdiq etdi.

Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında qanun layihəsinin təqdimatı zamanı qeyd edildi ki, bəzi apellyasiya məhkəmə hakimləri vəzifələrindən azad edilərək Ali Məhkəməyə təyin olunublar.

“Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” və “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya qanunlarında , həmçinin “Media haqqında” Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri müzakirəsiz qəbul edildi.

“Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında” və “Bələdiyyələrin statusu haqqında” qanunlara dəyişiklik layihələri barədə məlumat verən Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirdi ki, ötən müzakirələrdən sonra komitəyə hər hansı bir təklif daxil olmayıb.

Qanun layihələri səsə qoyularaq qəbul edildi.

“Azərbaycan Respublikası Silahlı Qüvvələri daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında”, “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” və “Mədəniyyət haqqında” qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirən deputat Zahid Oruc Yeni Türk Antiterror Mərkəzi yaradılması təklifini irəli sürdü. Onun sözlərinə görə, ölkəmizdə dini və siyasi casusluğa cəlb olunanlar, o cümlədən Londonda və Tehranda səfirliyimizə hücum edənlər eyni qüvvələrdir. Z.Oruc təklif etdi ki, Türk Dövlətləri Birliyi ilə eyni məqsədli beynəlxalq terror şəbəkələri PKK, İŞİD və erməni terroruna qarşı Yeni Türk Antiterror Mərkəzi yaradılsın.

Gündəlikdəki digər qanun layihələri müzakirə olunaraq müvafiq qərarlar qəbul edildi.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Şəki Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Həsənov Tural Həsən oğlu,
İsayev Elman Bəhruz oğlu,
Kərimov Əyyub Vaqif oğlu.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***
***Sahibə QAFAROVA***

**Bakı şəhəri, 5 aprel 2024-cü il**

# Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Şirvan Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Bəhmənov Habil Xanoğlan oğlu,
Hacıyev Pərviz Vaqif oğlu,
Həşimov Yaşar Xanoğlan oğlu,
Hüseynov Fikrət Cilingir oğlu.

**2.** Aşağıdakı hakimlər vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar Şirvan Apellyasiya Məhkəməsinin hakimləri vəzifəsindən azad edilsinlər:

Abdullayev İlkin Qismət oğlu,
Allahyarov Zaur Mirzağa oğlu,
Bağırov Məhəmməd Ənvər oğlu.

**3.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***
***Sahibə QAFAROVA***

**Bakı şəhəri, 5 aprel 2024-cü il**

# Konqo Prezidenti Səngəçal terminalında



**Azərbaycanda rəsmi səfərdə olan Konqo Prezidenti Deni Sassu-Nqesso və digər rəsmi şəxslər aprelin 5-də Səngəçal terminalında olublar. Terminalın Xəzər Enerji Mərkəzində qonaqları SOCAR-ın prezidenti Rövşən Nəcəf və BP-Azərbaycan şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli qarşılayıblar.**

BP şirkətinin hökumətlə işlər üzrə baş müşaviri Qivami Rəhimli qonaqlara Azərbaycanın neft tarixinin xronologiyası barədə ətraflı məlumat verib.

Bildirilib ki, dünyada ilk dəfə mexaniki üsul ilə neft quyusu 1846-cı ildə Bakıda – Bibiheybət ərazisində qazılıb. Azərbaycan dünyada ilk dəfə 1949-cu ildə açıq dənizdən – Xəzərin “Neft daşları” yatağındakı platformadan neft çıxarmağa başlayıb və bu hadisə “Ginnesin Rekordlar Kitabı”na ilk dəniz neft platforması kimi düşüb.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Prezident Heydər Əliyevin rəhbərliyi ilə nəhəng “Azəri-Çıraq-Günəşli” yatağının işlənilməsi məqsədilə dünyanın 7 ölkəsini təmsil edən 11 beynəlxalq neft şirkətinin iştirakı ilə “Əsrin müqaviləsi” kimi tanınan Hasilatın Pay Bölgüsü haqqında Saziş (HPBS) imzalanıb. Bu müqavilə ölkəmizin sürətli inkişafına təkan verərək onu regional enerji mərkəzinə çevirib.

Sonra qonaqlar avtobusla Səngəçal terminalının ərazisini gəziblər. Onlara terminaldakı texnoloji proseslər barədə ətraflı məlumat verilib.

Q.Rəhimli qeyd edib ki, Səngəçal terminalı Azərbaycanın neft və qaz sənayesinin döyünən ürəyi hesab edilir. Terminal Azərbaycanın Xəzər dənizindəki yataqlarından hasil edilən xam neftin və qazın qəbul edildiyi, emal olunduğu, saxlandığı və ixrac edildiyi məkandır. “Azəri-Çıraq-Günəşli” yatağındakı platformalardan hasil olunan neft və “Şahdəniz”dən çıxarılan qaz terminala daxil olur, Bakı–Tbilisi–Ceyhan və Cənubi Qafqaz Boru Kəməri vasitəsilə dünya bazarına ixrac edilir. Qeyd olunub ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin uzunluğu 1768 kilometrdir ki, bunun da 443 kilometri Azərbaycandan, 249 kilometri Gürcüstandan, 1076 kilometri isə Türkiyə ərazisindən keçir. Boru xəttinin diametri Azərbaycan və Türkiyə daxilində 42 düym (106,68 santimetr), Gürcüstanda isə 46 düymdür (116,84 santimetr). Türkiyədə Ceyhan Dəniz Terminalına doğru son hissəsində boru xəttinin diametri azalaraq 34 düymə (86,36 santimetr) enir.

Dünyanın ən böyük terminallarından sayılan Səngəçal terminalının sahəsi 688 hektardan çoxdur. Terminal gündə 1,2 milyon bareldən çox xam neft və 81 milyon kubmetr qaz emal etmək gücündədir. Xam neft saxlama həcmi isə 3,2 milyon barel təşkil edir. Terminalın sahəsi mürəkkəb boru kəmərləri və avadanlıq şəbəkəsi ilə əhatə olunub.

Terminaldakı idarəetmə mərkəzi Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçən ixrac boru kəmərlərinin fəaliyyətini hərtərəfli nəzarətdə saxlaya, problemləri aşkara çıxara bilir.

Qonaqlara ”Şahdəniz-2” və Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi layihələri çərçivəsində terminalda görülən işlər barədə də ətraflı məlumat verilib. Onlar Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin başlanğıcındakı əsas nasos stansiyası ilə də tanış olublar.

Ali qonağa məlumat verilib ki, Səngəçal terminalı Azərbaycanı Avropa ilə Asiyanın kəsişməsində mühüm bir qovşağa çevirib və Avropanın enerji təchizatının şaxələndirilməsində mühüm rol oynayır.

# Samir Nuriyevin Asiya İnkişaf Bankı departamentinin Baş direktoru ilə görüşü



**Aprelin 5-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, COP29 üzrə Təşkilat Komitəsinin sədri Samir Nuriyev Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya Regional Departamentinin Baş direktoru Yevgeni Jukov ilə görüşüb.**

Görüşdə Azərbaycanla Asiya İnkişaf Bankı arasında əməkdaşlıq və COP29-a hazırlıq prosesi barədə fikir mübadiləsi aparılıb.

Samir Nuriyev bu il Azərbaycanın Asiya İnkişaf Bankı ilə əməkdaşlığının 25 illiyinin tamam olduğunu bildirib və ölkəmizin bu əməkdaşlığı yüksək qiymətləndirdiyini diqqətə çatdırıb. Prezident Administrasiyasının rəhbəri ölkəmizdə yaşıl keçid gündəliyinin inkişafı istiqamətində həyata keçirilən layihələri qeyd edib.

COP29 üzrə Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə COP29-a hazırlıq işlərinə toxunaraq ölkəmizin bu mötəbər tədbirin yüksək səviyyədə təşkil olunması istiqamətində aparılan işlər barədə həmsöhbətinə məlumat verib.

Yevgeni Jukov COP29-un ev sahibi seçilməsi münasibətilə Azərbaycanı təbrik edərək, COP29 sədrliyi tərəfindən qısa müddət ərzində görülən işlərin təqdirəlayiq olduğunu deyib. O, Asiya İnkişaf Bankının COP29-la bağlı ölkəmizlə sıx əməkdaşlıq etmək və texniki dəstək göstərmək niyyətində olduğunu bildirib.

Y.Jukov Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, yaşıl keçid sahəsində qazanılmış nailiyyətlərlə bağlı məmnunluğunu ifadə edib və Asiya İnkişaf Bankının bu prosesə töhfə verməyə hazır olduğunu vurğulayıb.

**XQ**

# Denni Sassu-Nqesso Qaradağ Günəş Elektrik Stansiyasının qonağı olub

**Aprelin 5-də Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasında olub.**

Energetika naziri Pərviz Şahbazov Prezident Deni Sassu-Nqesso Elektrik Stansiyasının fəaliyyəti ilə bağlı ətraflı məlumat verib. Bildirib ki, Azərbaycanda yaşıl enerjiyə keçidlə bağlı mühüm işlər görülür.

Daha sonra qonaqlar stansiyanın idarəetmə mərkəzinin iş prosesi ilə tanış olublar.

Ali qonağın diqqətinə çatdırılıb ki, 2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, “AzərEnerji” ASC və Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Stansiyanın təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də “Gülüstan” sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə keçirilib.

Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib. Bu stansiya ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır.



Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət olunacaq. Eyni zamanda, atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyada 570 min ədəd günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib.

Sonda Konqo Prezidenti stansiya ərazisində ağac əkib.

# Rusiya XIN: Brüssel görüşü Cənubi Qafqazı yeni qarşıdurmaya sürükləyir

**Rəsmi Moskva İrəvanı Qərbin onu aldatmasına və Ermənistanı yanlış yola salmasına imkan verməməyə çağırır.**



Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin Ermənistan–ABŞ–Aİ formatında yüksək səviyyəli görüşlə bağlı bəyanatında deyilir.

Bəyanatda qeyd edilir ki, Rusiya Ermənistan–ABŞ–Aİ görüşünü Qərbin Cənubi Qafqazı geosiyasi qarşıdurmaya sürükləmək üçün növbəti cəhdi kimi qiymətləndirir. Regiondankənar qüvvələrin Cənubi Qafqazın işlərinə dağıdıcı müdaxiləsi ən mənfi nəticələrlə nəticələnə bilər.

Qərb Ermənistanı Cənubi Qafqazda son dərəcə təhlükəli planlarını həyata keçirmək üçün alətə çevirmək istəyir.

“Bizə məlumdur ki, Vaşinqton və Brüssel müvəqqəti vədlər altında Ermənistanın KTMT və Avrasiya İqtisadi Birliyindən çıxmasına, Rusiya hərbi bazası və sərhədçilərinin çıxarılmasına can atırlar”, – nazirlikdən əlavə edilib.

**XQ**

# “ASAN xidmət” afrikalı liderdə böyük maraq doğurub



**Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan 7 saylı Bakı “ASAN xidmət” mərkəzinin fəaliyyəti ilə tanış olub.**

Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev qonağa “ASAN xidmət” mərkəzlərinin yaradılması məqsədləri və həyata keçirilən fəaliyyət barədə ətraflı məlumat verib. Şəffaflığın artırılması və müasir innovasiyaların tətbiqi baxımından “ASAN xidmət”in yaradılması ilə səmərəli dövlət idarəçiliyinin təmin edilməsi sahəsində ciddi nailiyyətlər əldə olunduğu diqqətə çatdırılıb.

Ali qonağa “ASAN xidmət” modeli ilə bağlı təqdimat edilib. Hazırda Azərbaycanın intellektual brendinin ixracı istiqamətində 20-dən çox ölkə və beynəlxalq təşkilatla əməkdaşlıq edildiyi bildirilib.

Tanışlıqdan sonra Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso jurnalistlərə müsahibə verib.

Prezident Deni Sassu-Nqesso bildirib ki, “ASAN xidmət” xüsusi bir yanaşmanın məhsuludur. Bu, bütün əhaliyə həmin xidmətlərin əlçatanlığını, şəffaflığını təmin edir. Mən Prezident İlham Əliyevə ASAN konsepsiyasının təşəbbüskarı olduğuna və onu həyata keçirdiyinə görə öz təbriklərimi çatdırmaq istəyirəm. Azərbaycan brendi çox mükafatlara layiq görülüb. Burada, həmçinin gənclər, startapçılar bir araya gəlirlər, onlar üçün yaradılan şəraitdən bəhrələnirlər. Ölkəmizin müvafiq dövlət orqanlarının nümayəndə heyətini yaxın zamanda Azərbaycana ezam edəcəyəm ki, gəlib tanış olsunlar və qarşılıqlı əlaqələr qursunlar. Bu, ölkələrimiz arasında növbəti əməkdaşlıq sahəsidir.

Sonra Konqo Prezidenti “INNOLAND” İnkubasiya və Akselerasiya Mərkəzi və “ABAD”ın fəaliyyəti ilə tanış olub.

Prezident Deni Sassu-Nqessoya “ABAD”çı tərəfindən hazırlanmış xatirə hədiyyəsi təqdim olunub.

# Tovuz və Gədəbəy atəşə tutuldu

**Aprelin 5-i saat 15:10-dan 17:35-dək Ermənistan silahlı qüvvələrinin bölmələri növbəti təxribatlarına zəmin yaratmaq məqsədilə Azərbaycan Ordusunun Tovuz rayonunun Hacalı, Ağbulaq, Ağdam, Qaralar, Köhnə Qışlaq və Gədəbəy rayonunun Qalakənd yaşayış məntəqələri istiqamətlərindəki mövqelərinin qarşısında səngərin mühəndis cəhətdən təkmilləşdirilməsi işlərini görməyə cəhd göstəriblər. Bu barədə XQ-yə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**



Bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

Bundan başqa, saat 17:25 radələrində Berd rayonunun Çinarlı yaşayış məntəqəsində yerləşən mövqelərdən Azərbaycan Ordusunun Tovuz rayonunun Muncuqlu yaşayış məntəqəsi istiqamətindəki mövqeləri atıcı silahlardan atəşə tutulub.

**XQ**

# Konqo Prezidentinin səfəri başa çatıb

**Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun Azərbaycan Respublikasına rəsmi səfəri aprelin 5-də başa çatıb.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Konqo Respublikasının Prezidentini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***



# Ermənilər Ağdabanda qəbiristanlığı da minalayıblar

**Kəlbəcər rayonunun Ağdaban kəndi ərazisindəki qəbiristanlıqda minalanmış sahə aşkarlanıb. Ərazidə POMZ-2M tipli piyada əleyhinə minaların məftil çəkmə üsulu ilə qurulduğu müəyyənləşdirilib.**



Qeyd edək ki, bu tip minalar dairəvi şəkildə məhvetmə radiusuna malikdir və üzərindəki qəlpələrin parçalanması ilə ciddi fəsadlar yaradır.

Mülki şəxslərə və hərbi qulluqçulara qarşı təxribat törətmək məqsədilə qurulan minalar Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən təhlükəsizlik qaydalarına riayət edilməklə zərərsizləşdirilib və ərazidən müsadirə olunub.

**XQ**

# İrəvanın məkrli himayədarları

## ABŞ və Avropa İttifaqı Ermənistanı bölgədə yeni oyuna yönləndirir

**Bu gün sülh Ermənistan və Azərbaycanın kandarını kəsdirib. Bölgənin intizarla gözlədiyi həmin sülhü geri qaytarmaq üçün atılacaq addımların bütün məsuliyyəti ABŞ-nin və Fransa başda olmaqla Avropa İttifaqının üzərinə düşəcək. İrəvan isə bu məsuliyyətə şərik olmaqla canını qurtarmayacaq, həm də Brüssel "xəlvətxana"sından sonra bölgədə baş verə biləcək arzuolunmaz hadisələrin fəsadlarından ən çox ziyan çəkən tərəf o özü olacaq.**

### Üçtərəfli görüşə qədər baş verənlər

Dünən Belçika paytaxtında ABŞ Dövlət katibi Antoni Blinken, Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen və Ermənistan baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş və onun hələlik tam açıqlanmayan nəticələri yaxın günlərin müzakirə mövzusu olaraq qalacaq.

Əslində, aprelin 5-i öncəsi baş verənlər heç də qarşıdakı görüşdən az maraq kəsb etmirdi. Çünki, həmin olaylar yaddaqalan ştrixlərlə müşayiət olundu. Brüsseldəki üçtərəfli konfransa iki gün qalmış ABŞ Dövlət katibi Antoni Blinken, bir gün qalmış isə Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen Azərbaycan Prezideni İlham Əliyevə zəng ediblər. Onlar dövlətimizin başçısı ilə telefon danışıqlarında bu görüşün ölkəmizə qarşı olmadığı, Ermənistanla yalnız ticari-iqtisadi əlaqələrin inkişafına həsr olunduğu barədə bildirsələr də, bu, ciddi qəbul edilə bilməzdi. Brüssel görüşünün təşkilatçılarının gündəlikdə yalnız İrəvana iqtisadi yardım paketin olması barədə açıqlamalarının qeyri-səmimiliyini ortaya çıxaran reallıq odur ki, belə "humanitar yardım" kampaniyası heç bir halda ermənilər üçün Moskva bazarını əvəzləyə bilməz. İrəvan–Moskva münasibətlərinin mürəkkəbliyindən yararlanmağa çalışan Qərbin əsas məqsədinin Ukraynadan sonra Rusiyaya qarşı Ermənistanda yeni cəbhə açmaq olduğu heç kəsə sirr deyil. Yəni, sözdə haypərəst xarici güclər Cənubi Qafqazda yeni münaqişə ocağını körükləmək, Ermənistanı revanşa hazırlamaq barədə düşünürlər.

### "Ermənistanı güclü görmək istəyirik"

Beləliklə, "üçlüy"ün planlaşdırdığı Brüssel formatı baş tutdu və iştirakçılar görüşün yekunları ilə bağlı uyğun bildikləri formada mətbuata açıqlamalar verdilər.

"Ermənistan üçün regional inteqrasiya təhlükəsizlik və rifahın açarıdır. Biz istəyirik ki, Ermənistan güclü, müstəqil, regiona və dünyaya bağlı qonşuları ilə sülh şəraitində öz yerini tutsun. Birləşmiş Ştatlar və Avropa İttifaqı bu səylərə tərəfdaş olmaq istəyir. Hesab edirəm ki, bugünkü görüş bunun sübutudur". Bu fikirləri ABŞ Dövlət katibi Antoni Blinken Brüsseldə Aİ–ABŞ–Ermənistan üçtərəfli görüşünün yekunları barədə danışarkən deyib. Onun sözlərinə görə, ABŞ Ermənistan baş nazirinin idarəçiliyinə və iqtisadi islahatlara uyğun olan səylərə sərmayə qoyur: "Biz İrəvana 65 milyon dollardan çox yardım etməyi planlaşdırırıq. Bu, iki il əvvəllə müqayisədə 50 faizdən çox artım deməkdir".

Ağ ev rəsmisi bildirib ki, Vaşinqton ərzaq təhlükəsizliyi, rəqəmsal infrastruktur, enerjinin, ticarət tərəfdaşlarının şaxələndirilməsi və İrəvanın müəyyən etdiyi digər prioritetlər üçün investisiyalarla Ermənistanın demokratik və iqtisadi dayanıqlığına dəstəyi daha da artırmağa sadiqdir: "Beləliklə, Nikol Paşinyanın sülh təklifinin kəsişmə nöqtəsində yeni nəqliyyat marşrutları, enerji əməkdaşlığı, telekommunikasiya ilə inteqrasiya olunmuş Cənubi Qafqaz görürük. Getdikcə inteqrasiya olunan, insanlara fayda verəcək bir bölgə ilə güclü gələcək görünür. ABŞ və Avropa İttifaqı sizə bunu qurmaqda kömək etmək istəyir".



Fəqət A.Blinkenin növbəti açıqlaması üçtərəfli görüşün gündəliyində başqa məsələlərin də olduğuna işarə idi: "Biz Dağlıq Qarabağdan (?) didərgin düşmüş 100 min etnik erməniyə dəstəyimizi davam etdirəcəyik. Bu, Ermənistanın uzunmüddətli sabitliyi və rifahı, həmçinin regional təhlükəsizliyi üçün çox vacibdir". "Üçlər"in qapalı görüşdə daha hansı məsələləri müzakirə etdiyini, hələlik, sadəcə, güman etmək olar.

Brüsseldə üçtərəfli görüşün yekunlarına dair keçirilən mətbuat konfransında Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenin açıqlamasından öyrənirik ki, Avropa İttifaqı qarşıdakı 4 il ərzində Ermənistana 270 milyon avro qrant verəcək. AK sədri Paşinyan hökumətinin demokratik islahatlar aparmağa hazır olmasını alqışladığını bildirərək, tərəflərin beynəlxalq ticarət imkanlarını müzakirə edəcəyini vurğulayıb. Paşinyanın təklif etdiyi "Sülh qovşağı" təşəbbüsünü dəstəklədiklərini açıqlayan Lyayen daha sonra İrəvanın Rusiyaya sanksiyalardan yayınmağa qarşı tədbirlərini də alqışlayıb: "Biz, həmçinin öldürücü silah və texnikanın Rusiyanın əlinə keçməməsi üçün Rusiyaya sanksiyalarla bağlı İrəvanın mövqeyini bəyənirik. Bu, Aİ və Ermənistanın həm dəyərlər, həm də maraqlar baxımından daha da yaxınlaşdığını göstərir".

Bu məqamda reallığı qeyd etməyimiz zəruridir. Reallıq isə ondan ibarətdir ki, Rusiyanın sanksiyalardan yayınmaması üçün Ermənistanın, guya, "mübarizə aparması" tamamilə yalandır. Əksinə, rəsmi İrəvan Moskvanın Qərbin sanksiyalarından yayınmasında yaxından iştirak edir və bu "alverdən" milyardlar qazanır. Bu mövzunu həmin Qərb mediası dəfələrlə gündəmə gətirib və xanım Lyayenin bundan xəbərsiz olduğunu düşünmək sadəlövhlük olardı. Yeri gəlmişkən, AK rəhbəri Ursula Fon der Lyayen də, Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Jozep Borrell də jurnalistlər qarşısında çıxışlarında Ermənistana təhlükəsizlik təminatı və ya hərbi yardımla bağlı heç nə demədilər. "Üçlük"dən heç birinin İrəvanla Bakı arasında sülh sazişinin imzalanmasının vacibliyindən söz açmamaları da diqqətdən yayınmadı. Onlar Nikol Paşinyanın "sülh kəsişməsi" layihəsini dəstəklədiklərini söyləsələr də, Prezident İlham Əliyevin "Qafqaz evi" ideyasını "unutdular".

"Ermənistan ərazi bütövlüyü və suverenliyin qarşılıqlı tanınması əsasında Azərbaycanla münasibətlərin normallaşdırılmasına sadiq qalır". Bu sözləri isə üçtərəfli görüşdən sonra baş nazir Nikol Paşinyan səsləndirib. Buna qədər də dəfələrlə təkrarlanan və ümumi sözlərdən ibarət açıqlamasında N.Paşinyan onu da vurğulayıb ki, Ermənistan Alma-Ata Bəyannaməsi əsasında sərhədlərin delimitasiyası, həmçinin ölkələrin suverenliyinə və qanunvericiliyinə, bərabərlik və qarşılıqlılıq prinsiplərinə tam hörmət əsasında bütün regional kommunikasiyaların açılmasının tərəfdarıdır. Vəssalam! Bəs, qərbli tərəfdaşları ilə bağlı qapılar arxasında keçirdiyi birsaatlıq söhbətində Paşinyan başqa hansı məsələləri müzakirə edib? Bu barədə şərh verilməyib.

Erməni mediası Nikol Paşinyanın görüşdən əvvəl dediklərinə yer ayırıb. "Biz Ermənistanda özəl sektorun yeni bazarlara çıxa bilməsi üçün rəqabət qabiliyyətini inkişaf etdirmək niyyətindəyik. İnvestisiya mühitini Avropa və ABŞ şirkətləri üçün daha cəlbedici etməyə hazırıq. Malların və xidmətlərin keyfiyyəti üçün infrastrukturun təkmilləşdirilməsi, Qərbin işgüzar dairələri arasında əlaqələrin gücləndirilməsi ilə bağlı yardımlar gözləyirik", – deyə Paşinyan bildirib. Yalnız işgüzar xarakterli açıqlamalar verən Ermənistan baş nazirinin arxasında tutduğu əlində nəyi gizlətdiyini yaxın günlərdə görəcəyik. Belçika paytaxtına toplaşan və onlara dəstək verən qüvvələrin Ermənistanın inkişafı adı altında Cənubi Qafqazda yeni xaos yaratmağa çalışdıqları siyasətdən uzaq diletanta da aydındır.

### "Cənubi Qafqazda növbəti təhlükə mənbəyi yaradılır"

Qərbin bu avantürist layihəsinin əsl mahiyyətindən Bakı xəbərdardır və onun buna cavabı qəti və aydındır. Dünən Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ, Avropa İttifaqı və Ermənistan arasında Brüsseldə keçirilən üçtərəfli görüşə toxunub. Dövlət başçısı bildirib ki, bu formatda görüş Cənubi Qafqazda növbəti təhlükə mənbəyi yaratmağa xidmət edir: "Son günlər həm ABŞ-nin, həm də Avropa İttifaqının yüksək vəzifəli şəxslərinin təşəbbüsü ilə baş tutan telefon danışıqları əsnasında bizi inandırmağa çalışdılar ki, bu görüş Azərbaycanın əleyhinə deyil. Amma biz bunun Azərbaycanın və Cənubi Qafqazda işbirliyinin əleyhinə olduğunu bilirik. Bu, ayırıcı xətlərin yaradılması və ölkəmizi təcrid etmək məqsədini güdür".

Dövlət başçısı bir daha qeyd edib ki, keçən ilin sentyabrından indiyədək Avropa Parlamentinin, Avropa Şurasının Azərbaycan əleyhinə bəyanatlar verməsi, Ermənistanı Cənubi Qafqazda bir silahlı forpost kimi yaratmaq cəhdləri gələcəkdə çox böyük fəsadlar törədəcək: "Buna görə, biz bununla bağlı ABŞ və Avropadakı tərəfdaşlarımıza xəbərdarlıq etmək üçün açıqlamalar verdik".

Dünyada geosiyasi vəziyyətin dəyişdiyini qeyd edən cənab İlham Əliyev belə bir şəraitdə Azərbaycan–Türkiyə birliyinin hər zaman olduğu kimi, bu gün də güclü olmasının vacibliyini önə çəkib, bu birliyi pozmaq istəyənlərin arzularının puç olacağına əminliyini bildirib.

Öz növbəsində Mövlud Çavuşoğlu bildirib ki, bölgədə sülhün və təhlükəsizliyin dayanıqlılığı, əslində, Qərbin də marağında olmalıdır: "Azərbaycan Qərb ölkələrinin enerji təhlükəsizliyi üçün vacib rol oynayır. Bu baxımdan, Fransa başda olmaqla, digər Avropa dövlətləri sülhün əldə olunması üçün Ermənistana təzyiq göstərməlidirlər".

M.Çavuşoğlunun sözlərinə görə, çoxlarına, o cümlədən, Türkiyəyə yaxşı məlumdur ki, Qərb, xüsusilə, rəsmi Paris bütün imkanları ilə regionda sülhü əngəlləməyə çalışır: "Çünki bu, Cənubi Qafqazda sülh mövcud şəraitdə Qərbin maraqlarına uyğun deyil. ABŞ və Avropa İttifaqı bölgədəki təsir imkanlarını qorumaq və daha da artırmaq üçün münaqişənin aradan qalxmamasının şərti olduğunu bilirlər. Elə buna görə də regionun "ən zəif bəndi" hesab olunan Ermənistandan istifadə edirlər. Qərb Ermənistanı şirnikləndirərək öz tərəfinə çəkir, sonra da təlimatlarını verir. Bu, birbaşa olaraq "kökə və qamçı" siyasətinin tətbiq edilməsidir".

Türkiyənin sabiq xarici işlər naziri hesab edir ki, son zamanlar Ermənistanın sülh gündəliyindən uzaqlaşması, şərti sərhəddə qoşun yığması da məhz Qərbin direktividir: "Bu məntiqlə baş nazir Nikol Paşinyan, Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen və ABŞ Dövlət katibi Antoni Blinken arasında bu gün (dünən– red.) Brüsseldə keçirilən üçtərəfli görüşdən sonra vəziyyətin daha da gərginləşəcəyi qətiyyən istisna edilmir".

### İrəvan odla oynayır

Beləliklə, Ermənistan və Aİ arasında "Eurojust" çərçivəsində əməkdaşlıq sazişinin imzalanması ilə başa çatan sönük Brüssel görüşünün əsas yekunu kimi, ABŞ və Aİ-nin erməniləri himayəyə götürdüklərini qeyd etmək daha doğru olardı. İştirakçılar bölgədə sülh və əməkdaşıq məsələlərini isə sanki görməzdən gəldilər.

Rəsmi İrəvanın da etiraf etdiyi kimi, son altı ayda iki ölkə arasındakı şərti sərhəddə sakitlik dövrü hökm sürür. Ermənistan və Azərbaycanın sülhə heç vaxt olmadığı qədər yaxınlaşdığı hazırkı durumda "üçlər"in Brüssel görüşü Qərbin bölgədə sülhə və sabitliyə münasibətinin səmimi olmadığını, yeni bölücü xətlər "cızmağa", xüsusi "təsir dairələri" yaratmağa cəhd göstərdiyini bütün çılpaqlığı ilə ortaya qoydu. Ermənistanın öz istəyinə uyğun olaraq deyil, Qərbin diktəsi ilə hərəkət etdiyi məlumdur. Faktiki olaraq, diplomatik müstəvidə atacağı hər bir addımını avropalı "dayıları" ilə razılaşdırmağa məcbur edilən Nikol Paşinyan, deyəsən, bölgədənkənar oyunçuların iştirakı ilə Cənubi Qafqazda "böyük yanğın" törətməyə hazırlaşır. Görünür, yaxın üç il yarımda Bakıdan aldığı "İbtidai hərbi hazırlıq" dərslərini unutduğu görünən Ermənistana qalamağa çalışdığı yeni ocaqda yanıb kül olmağa namizədin adını xatırlamağa ehtiyac var. Həmin bəxtsiz namizəd Hayastanın özüdür!

***İmran BƏDİRXANLI***
***XQ***

# Tehran niyə susur?

(əvvəli 1-ci səhifədə)

Xarici işlər naziri Ceyhun Bayramov martın 29-da Rusiya Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Pavel Knyazevi qəbul edərkən sülh prosesinin irəlilədilməsi istiqamətində yeni çağırışlar yaradan bir sıra addımların, o cümlədən regiondan uzaqda yerləşən dövlətlərin öz birtərəfli mövqelərini bölgəyə sırımaq cəhdlərinin prosesə maneə törətdiyini bildirdi. Bu istiqamətdə Aİ–Ermənistan–ABŞ müştərək konfransının qeyri-şəffaf və inklüziv olmayan mühitdə təşkili ilə bağlı ölkəmizin mövqeyinin, habelə bu kimi təşəbbüslərin revanşist əhval-ruhiyyənin hökm sürdüyü Ermənistanı yeni təxribatlara təşviq edə biləcəyi ilə bağlı narahatlıqlarımızın aydın şəkildə ifadə olunduğunu vurğuladı.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova ötən həftə keçirdiyi ənənəvi brifinqdə Ermənistan–Aİ–ABŞ görüşünün Moskvada narahatlıq yaratdığını bildirdi. Qeyd etdi ki, bu cür hadisələrin Rusiyanı narahat etməsi səbəbsiz deyil: "Çünki ABŞ və Aİ nümayəndələri tərəfdaşlarımıza birbaşa deyirlər ki, onların əsas fəaliyyəti Rusiyaya qarşı yönəlib. Onlar bunu birbaşa, açıq mətnlə deyirlər".

M.Zaxarova qeyd etdi ki, Ermənistan bütün dünyanın gözü qarşısında erməni xalqının köklü maraqlarına tamamilə zidd olan kollektiv Qərbin son dərəcə təhlükəli planlarının həyata keçirilməsi alətinə çevrilir.

Qardaş Türkiyə isə ilk gündən mövqeyini ortaya qoyaraq Brüssel görüşünün regiondakı mürəkkəb problemlərin həlli üçün əsas götürülməli olan neytrallıq yanaşmasına zərbə vuracağını bəyan etdi. Türkiyə Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olundu ki, Azərbaycanın iştirakını nəzərdə tutmayan bu təşəbbüs Cənubi Qafqazda sülhə xidmət etmək yerinə bölgənin geosiyasi münaqişələr meydanına çevrilməsinə yol açacaq: "Üçüncü ölkələri atacaqları addımlarda regionun xüsusiyyətlərini nəzərə almağa və tərəflərə eyni məsafədən yanaşmağa çağırışımızı bir daha təkrar edirik. İnanırıq ki, Cənubi Qafqaz regionda bərqərar olacaq daimi sülh və sabitlik əsasında yüksələcək və layiq olduğu regional rifaha nail olacaq. Türkiyə, həmişə olduğu kimi, bu məsələdə üzərinə düşəni etməyə və Azərbaycanla Ermənistan arasında daimi sülhün əldə olunması üçün tarixi fürsətdən istifadənin təşviqinə davam edəcək".

Prosesdə səsini çıxarmayan ölkə yalnız İran oldu. Ermənistanın ərazi bütövlüyünü özünün "qırmızı xətti" elan edən, bölgədə sərhədlərin dəyişdirilməsinə dözməyəcəyini, regiona aid məsələləri region ölkələrinin özlərinin həll etməsinin vacibliyini dəfələrlə bildirən Tehranın bu yanaşması heç cür anlaşılmır. Cənub qonşumuzun mövqeyi onun regionun böyük dövləti kimi statusuna uyğun gəlmir. Halbuki, Ermənistanla Aİ və ABŞ-nin timsalında kollektiv Qərbin daha isti münasibətlər yaratması yumşaq desək, İranın maraqlarına uyğun sayıla bilməz. Əvvəllər Rusiyanın forpostu olan Ermənistan hazırda faktiki olaraq, Qərb üçün belə bir funksiya icra etməyə başlayıb. 2022-ci ilin oktyabrında 40 nəfərlik heyətlə Emənistanda fəaliyyətə başlayan, hazırda sayları 209 nəfər olan Avropa İttifaqının mülki müşahidə missiyasının həm də İranla bağlı məlumatlar topladığı iddia edilir. Ancaq Tehran buna da səssiz qalır. Əslində, mövqe sərgiləməməyin özü də razılaşmanın bir növüdür.

Vaxtilə Zəngilan rayonunda adi fermanı hansısa ölkənin "hərbi bazası" sayan İran indi sərhədində yerləşmiş Aİ-nin (faktiki olaraq NATO-nun) casus missiyasına niyə səssiz-səmirsiz qaldığı heyrət doğurur. Yeri gəlmişkən, Aİ missiyasının NATO missiyasına çevrilməsi artıq bir reallıqdır. Belə ki, 2022-ci ilin oktyabr ayında ilk iki aylıq müddətdən sonra Azərbaycanın razılığı olmadan Aİ missiyasının müddəti əhəmiyyətli dərəcədə uzadıldı və daha çox müşahidəçi sayı ilə daimi əsaslı missiyaya çevrildi. Bu missiya o vaxtdan etibarən anti-Azərbaycan təbliğat aləti kimi fəal şəkildə istismar edilməkdədir. Bundan əlavə, Kanadanın missiyaya qoşulması ilə o, de-fakto NATO missiyası xüsusiyyətinə malikdir.

Amma, əslində, biz İranın ikili standartlar siyasətinə əsaslanan bu mövqeyinə öyrəşmişik. İran hər zaman müsəlman həmrəyliyindən danışsa və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirsə də, əməldə buna zidd yanaşma sərgiləyib. Tehran qonşuluğunda müasir, müstəqil Azərbaycan Respublikasının varlığından həmişə əndişələnib. İran Azərbaycanı hər zaman zəif, gücsüz görmək istəyib. Ancaq onun bu istəyi gözündə qalıb.

Bugünlərdə İran hava yollarına məxsus "Boeing" tipli yük təyyarələri ilə Ermənistana davamlı olaraq silah daşındığı məlum olub. Bu barədə məlumat "Maiden tower" teleqram kanalında yayımlanıb. Xəbərdə qeyd olunur ki, İrana məxsus "Boeing 747-21AC" yük təyyarələri vasitəsilə Ermənistana silah daşınmasına cari ilin martın 29-dan başlanılıb. "Maiden tover" bu məlumatı təsdiqləyən hava marşrutunun uçuş xəritəsini də paylaşıb.

İranın məlum mövqeyinə Azərbaycan parlamentinin dünənki iclasında da münasibət bildirilib. Milli Məclisin deputatı Siyavuş Novruzov deyib ki, Brüsseldə keçirilən görüşlə bağlı Azərbaycanın mövqeyi məlumdur: "Burada məni narahat edən digər məsələ İranın susqunluğudur. 44 günlük Vətən müharibəsi zamanı İran bəyanat verirdi ki, Zəngəzura girmək olmaz. Müharibə başa çatandan az sonra Qərbi Zəngəzurda – Qafanda konsulluq açdı. Amma bu gün görürük ki, İran bu məsələyə heç bir münasibət bildirmir. Bu gün həmin torpaqlarda NATO-nun, digər ölkənin kəşfiyyatçıları, eyni zamanda, terrorçular var. İran bilməlidir ki, o torpaqlara yığılan silahlar Azərbaycan üçün yox, İran üçündür. Digər tərəfdən İran parlamentində həpəndin biri deyib ki, Azərbaycandakı İsrail səfirliyini bombalamaq lazımdır. İsrailin dünyanın 150-dən çox ölkəsində səfirliyi var. Niyə gözünüz təkcə Azərbaycandakı səfirliyi görür? İranın gücü çatırsa, ABŞ-dəki, Rusiyadakı, ərəb ölkələrindəki İsrail səfirliyini bombalasın. Niyə məhz Azərbaycan? İndi hər kəs öz mövqeyini ortaya qoymalıdır".

Bu arada Fransanın Ermənistandakı səfiri Olivye Dekotini bildirib ki, rəsmi Paris İranın Hayastanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı narahatlığını bölüşür. Diplomat qeyd edib ki, İran dəfələrlə Ermənistanın ərazi bütövlüyünə dəstəyini ifadə edib və Tehranın narahatlığını BMT-nin digər üzvləri də bölüşməlidirlər (?). Buradan çıxan nəticə odur ki, Ermənistana yanaşmada regiona kənar qüvvələrin gətirilməsini özünün "qırmızı xətti" elan etmiş İranla regiona gəlmək istəyən Fransanın mövqeyi eynidir.

Onu da qeyd edək ki, 5 aprel görüşünün regionda sülh və sabitliyə təhlükə olması ilə bağlı Rusiya və Türkiyənin narahatlıq bildirməsinə baxmayaraq, İranın bu məsələdə də susması Tehranın səsləndirdiyi "qırmızı xətlər"ə özünün riayət etmədiyi anlamına gəlir. Digər tərəfdən, Fələstində indiyədək 30 mindən çox insan həlak olub, amma İran ABŞ ilə oyun quraraq proseslərdən kənar dayanıb, bunun müqabilində Vaşinqton sanksiya altında olan İranın neftlə bağlı maxinasiyalarına göz yumur. Bəzi ekspertlər ehtimal edirlər ki, Tehranın Yaxın Şərqdəki proseslərdən, necə deyərlər, yaxasını kənara çəkə bilməsi Vaşinqtonla apardığı separat danışıqların nəticəsidir. Bunun nəticəsində ABŞ İranın nüvə proqramına mane olmur. İran isə öz növbəsində Qərbə hansısa güzəştlər vəd edib. Cənubi Qafqazda baş verən proseslərdə isə İran Fransa ilə sövdələşmiş kimi görünür. Bir sözlə, bütün bu proseslər İranın susqunluğu şəraitində baş verir. Tehran sanki sərhədləri yaxınlığında ABŞ və Aİ-nin yerləşdiyini, onunla bağlı kəşfiyyat məlumatlarının toplanıldığını görmür. Ancaq "görəndə" iş işdən keçmiş olacaq...

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**politoloq**

– Bu məsələdə Tehranın mövqeyindən danışarkən qeyd etmək lazımdır ki, ümumiyyətlə, Ermənistana münasibətdə Qərblə İran arasında sanki formalaşmış ortaq mövqe mövcuddur. Bəs bu ortaq mövqe nədən ibarətdir? Azərbaycan torpaqlarının təxminən 30 il davam edən işğalına göz yuman ölkələrdən biri də qonşu İran idi. İran beynəlxalq hüququn, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinin tərəfdarı olduğunu bildirsə də, işğal faktı Tehranı narahat etmirdi. Əksinə, Azərbaycan torpaqlarını azad etdikdən sonra İran narahat olmağa başladı. İndi də regiona göz görə-görə kənar hərbi-siyasi qüvvənin daxil olmasına baxmayaraq, İran səssiz qalıb. Nəzərə almaq lazımdır ki, İran həmin hərbi-siyasi qüvvə – istər ABŞ, istərsə də Aİ ilə xoş münasibətdə deyil.

Region ölkələrindən Türkiyə və Rusiya bu mövzuda mövqeyini bildirsələr də, İran susmağa davam edir. Bu isə ABŞ və Aİ-nin İran sərhədlərində hərbi mövcudluğunun Tehranı narahat etmədiyi mənasına gəlir. İran etiraf etməsə də, reallıq bundan ibarətdir ki, yaranmış vəziyyət onun üçün risklər formalaşdırır. Həmin risklər region ölkələrinin hamısının, xüsusilə İran və Rusiyanın maraqlarını zərbə altında qoyur. Çünki İran da Rusiya kimi Qərblə birbaşa qarşıdurma vəziyyətində olan ölkədir. Ancaq Rusiya öz mövqeyini bildirsə də, İran bundan yayınır.

# Yeni tarixi mərhələdə milli ideya

**VII MƏQALƏ**

**Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



## Milli ideya və təhlükəsizlik

VI məqalədə yeni tarixi mərhələdə milli ideyanın başqa vacib faktorlarla yanaşı, milli təhlükəsizliyin təmini ilə də sıx bağlı olması aktuallığını vurğulamışdıq. Milli ideya ilə milli təhlükəsizliyin fəlsəfi və siyasi bağlantısı ilk baxışdan aydın olmaya bilər. Lakin yeni tarixi mərhələ adlandırdığımız dövrdə dünya, bütövlükdə, mürəkkəb, açıq və qeyri-xətti sistem kimi təsəvvür edilir ki, onun bütün tərkib hissələri bir-biri ilə sıx əlaqədə olmalıdır. Belə mühitdə isə yalnız sistemli inkişaf reallaşa bilər. Hətta, öncəki tarixi mərhələlərdə bir-birindən çox uzaq olan sahələr arasında elə bağlantılar özünü göstərir ki, onları adekvat fəlsəfi dərk etmək üçün yeni yanaşmalara ehtiyac yaranır. Onların sırasında milli ideya ilə milli təhlükəsizliyin qarşılıqlı əlaqəsi də vardır. Həmin kontekstdə bir maraqlı və mühüm məqamı da vurğulayaq.

İndi siyasi liderlər, analitiklər, filosoflar və politoloqlar enerji təhlükəsizliyi ilə milli təhlükəsizlik arasında çox sıx qarşılıqlı əlaqə görürlər. Reallıqda enerji sahəsində təhlükəsizliyini təmin edə bilən dövlət həm də avtomatik olaraq milli təhlükəsizliyini təmin etmiş olur. Buna görədir ki, Azərbaycanın geniş bir geosiyasi məkanda enerji təhlükəsizliyinin təmininə böyük töhfə verməsi həm də bir sıra dövlətlərin milli təhlükəsizliyinə töhfə kimi qəbul edilir. Gerçəkdə bu iki faktor arasında əlaqənin məzmunu nədən qaynaqlanır?

Müasir dövrün geosiyasi dinamikası və ümumi mənzərənin vəziyyəti bu iki faktoru bir-birinə sıx bağlamışdır. İndi dövlətlər bir-biri üçün enerji təminatında problem yaratmaqla rəqibləri zəiflətməyə, müqavimət gücünü azaltmağa və bu əsasda milli təhlükəsizliyə təhdid olan faktorlardan ona qarşı istifadə etməyə çalışırlar.

Buna qarşı hansı səmərəli tədbirləri görmək olar? Onların sırasında milli ideyanın toplum tərəfindən inklüziv legitim faktor kimi qəbul edilməsi zəruridir. Çünki o halda cəmiyyətin kənar mənfi təsirlərə müqaviməti güclü olur və o, daxili resurslarını səfərbər edərək, mübarizə aparır.

Bu prizmada Azərbaycan üçün yeni tarixi mərhələdə milli ideyanın başlıca məzmunu özündə hansı faktorları ehtiva edə bilər? Fikrimizcə, bu, güclü lider, güclü dövlət və güclü cəmiyyət (xalq) birliyidir! Burada məsələ iki aspektin vəhdətində qoyulur. Birinci aspekt lider–dövlət–xalq qarşılıqlı münasibətlərinin inklüziv legitim olması ilə bağlıdır. İkinci aspekt dövlət üçün strateji əhəmiyyəti böyük olan bu üç faktorun həm ayrılıqda güclü olması, həm də birgə güclü olmaları əsas şərtdir. Hər iki aspekt ciddi araşdırma tələb edir.

## Milli lider

Liderin güclü olması hazırda bütün dünya üçün dövlətlərin müstəqilliyinin birinci şərti kimi qəbul edilir.
Güclü lider istənilən situasiyada, o cümlədən, gözlənilməz böhranlı vəziyyətlərdə cəmiyyət və dövlət üçün faydalı olan qərarlar qəbul edəndir. Müasir mərhələdə bu, asan məsələ deyildir və çox sayda faktorları nəzərə almağı tələb edir. Lakin real güclü olan lider bütün çətinlikləri aşır və dövr üçün aktual sayılan başlıca problemləri həll edir. Nümunə kimi ulu öndər Heydər Əliyevin keçən əsrin 90-cı illərində çox mürəkkəb və ziddiyyətli geosiyasi situasiyada Azərbaycan dövləti və xalqı üçün tam faydalı olan addımlar atmasını göstərmək olar. Bunun sayəsində Azərbacan dövlət və cəmiyyət olaraq xilas oldu, bütövlüyünü saxladı və inkişaf xəttinə keçdi.

Bununla müasir dövr üçün müstəqilliyin əsas göstəricilərindən olan xilaskarlıqla yeni quruculuğu paralel aparmaq keyfiyyətini Ulu öndər nümayiş etdirdi. "Əsrin müqaviləsi" enerji strategiyasını milli təhlükəsizliyə xidmətə istiqamətləndirdi. Həyata keçirilən geniş islahatlar Azərbaycanda müstəqil dövlətin institutlaşmasının müxtəlif sferalarını əlaqələndirdi. Qısa müddətdə Azərbaycan cəmiyyəti yeni sosial-iqtisadi, siyasi-mədəni strukturlaşma səviyyəsinə keçdi.

Müasir politoloji təlimlərdə vurğuladığımız siyasi keyfiyyətlər liderin güclü olduğunu təsbit edən parametrlər kimi təqdim olunur. Deməli, güclü lider hər bir situasiyada dövləti və cəmiyyəti qalib edəndir!

Digər nümunə Prezident İlham Əliyevdir. İlham Əliyev milli ideyanın bir mərhələsini tam reallaşdıran müzəffər liderdir! Bütün aspektlərdə qalibdir. Siyasi, iqtisadi, mədəni, mənəvi-əxlaqi, enerji, təhlükəsizlik, ordu quruculuğu və s. sahələrdə böyük uğurlar qazanmışdır. Əldə etdiyi uğurların real nəticəsi və bu mənada təcəssümü II Qarabağ savaşında qalib gələrək ölkənin ərazi bütövlüyünü təmin etməsidir. Eyni zamanda, İlham Əliyev ölkənin suverenliyini tam təmin etdi! Bununla milli ideyanı reallaşdıran güclü lider oldu!

Deməli, liderin güclü olduğunu göstərən əsas parametr milli ideyanı reallaşdırmaqdan ibarətdir. Bu şərt yeni tarixi mərhələdə daha da aktuallaşır.

## Güclü dövlət

Azərbaycanda güclü dövlət quruculuğu konsepsiyasının müəllifi Heydər Əliyevdir. Ümummilli lider çox çətin və ziddiyyətli dövrdə ölkədə müstəqil güclü dövlət qura bildi. Onun strateji hədəflərini və onlara çatmağı düzgün müəyyən etdi və həyata keçirdi.

İlham Əliyev bu prosesi böyük uğurla davam etdirdi. O, bu kontekstdə vurğulayır ki, artıq müstəqil dövlət quruculuğunun əsas prinsipləri müəyyən edilmişdir. Onlar "bir millət, iki dövlət" ümumi strateji düsturu çərivəsində məzmunlaşırlar.

Onu deyək ki, dövlətin gücünü təsdiqləyən faktorlar əldə edilən uğurlardır. Ölkənin ərazi bütövlüyünün təmin edilməsinin təməlində sistemli və davamlı inkişaf dayanır. Cəmiyyətin bütün sahələri üzrə davamlı inkişafa nail olunmuşdur. Ordu gücləndirilmişdir, dövlətin bütün strukturları dəqiq işləyir. İslahatlar dayanmır və iqtisadi infrastruktur daha da təkmilləşir. II Qarabağ savaşını qazanan məhz Heydər Əliyevin əsasını qoyduğu güclü dövlətçilik strategiyası oldu! Müasir, demokratik və daim inkişafda olan Azərbaycan dövləti!

Dövlətin gücünü ifadə edən digər faktor onun xarici siyasət kursunun məzmunu ilə bağlıdır. Azərbaycan yeni tarixi mərhələ üçün müəyyən etdiyi 14 prioritet istiqamət vasitəsilə həm regional liderliyini, həm də qlobal miqyasda geosiyasi oyunçu kimi mövqeyini möhkəmlətmək xəttini seçmişdir. Bunun üçün Azərbaycan həm regionda sabitlik və təhlükəsizliyin əsas qarantıdır, həm də beynəlxalq təhlükəsizliyin yeni arxitekturasının qurulmasının fəal iştirakçısı. Bu iki funksiyanı bir-biri ilə qarşılıqlı əlaqədə reallaşdıran rəsmi Bakı yeni tarixi mərhələdə güclü dövləti yeni səviyyəyə yüksəltməyə nail olacaqdır.

## Güclü cəmiyyət

Bu faktor faktiki olaraq inklüziv legitimliyin təməlidir. Lider və dövlətin gücü, əslində, cəmiyyətlə birlikdən qaynaqlanır. Lider xalqı və cəmiyyəti ilə bir olanda həm özü, həm də dövləti güclü olur. Azərbaycan cəmiyyətinin gücü azərbaycançılıq ideologiyasından qaynaqlanır. Azərbaycançılıq real əsasda cəmiyyəti birləşdirir, onun inkişafını təmin edir, bütün sahələrdə tərəqqini stimullaşdırır.

Ulu öndər Azərbaycançılıq məfkurəsi deyəndə, hər şeydən öncə, Azərbaycan mədəniyyətini, ana dilimizi və adət-ənənələrimizi nəzərdə tuturdu. Bununla yanaşı, Heydər Əlyev daim başqa mədəniyyətlərə, dünyanın mənəvi-mədəni və əxlaqi zənginliyinə açıq olmağı tövsiyə edirdi.

Bundan başqa, azərbaycançılıq daxili mühitdə multikulturalizmi aktuallaşdırır və ona geniş şərait yaradır. Bunun sayəsində Prezident İlham Əliyev milli ideyanın bir mərhələsinin nəticəsi olaraq vətəndaş cəmiyyətinin formalaşmasını göstərmişdir. Vətəndaşın gücü, bütövlükdə, cəmiyyətin gücünün təməlində dayanır. Deməli, vətəndaşın güclü olması güclü cəmiyyətlə güclü dövlətçiliyi birləşdirən əsas amildir.

Məsələnin bu tərəfi milli ideya kontekstində son dərəcə əhəmiyyətlidir. Aydın olur ki, yeni tarixi mərhələdə inkişafın mərkəzində insan amili dayanacaqdır. Lakin bu faktor güclü dövlətlə güclü cəmiyyətin vəhdətini yaratmaqda başlıca lokomotiv rol oynamalıdır. Bunu isə güclü lider reallaşdıracaqdır. Onda yeni tarixi mərhələdə güclü liderin milli ideyanın mərkəzi amili olacağı nəticəsini çıxara bilərik.

Bizcə, Azərbaycan üçün başqa variant uğurlu olmaya bilər. Hər şeydən öncə, o səbəbdən ki, yeni tarixi mərhələdə milli ideya güclü liderin sayəsində reallaşa bilər. Elə bir lider ki, faktiki olaraq milli ideyanın məzmunu və məqsədini müəyyən edir. Eyni zamanda, bu məqsədə çatmanın konkret mexanizmlərini hazırlayır! Bu lider Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir!

***

Yekun olaraq, yeni tarixi mərhələdə milli ideyanın başlıca xüsusiyyəti haqqında fikir yürüdə bilərik. Yuxarıdakı təhlildən görünür ki, yeni tarixi mərhələdə milli ideyada siyasi şəxsiyyət faktoru aparıcı rol oynamalıdır. Dövlət başçısı həm də siyasi lider kimi, milli ideyanı müəyyən edən və onu reallaşdıran şəxsiyyətdir. Bunun üçün dövlət başçısı, təbii ki, cəmiyyətin bütün kəsimlərinin milli ideya ilə bağlı nəbzini tutmalıdır. İlham Əliyev bunu həyata keçirir. Maraqlıdır ki, cəmiyyətdən, o cümlədən, ziyalılardan olan reaksiyalar göstərir ki, toplum birmənalı olaraq İlham Əliyevin milli ideya ilə bağlı fikirlərini tam qəbul etməyə hazırdır və Prezidentə güvən yüksəkdir.

Belə çıxır ki, Azərbaycan yeni tarixi mərhələdə milli ideyanın müəyyən edilməsinə və onun reallaşmasına tamamilə monolit, fikir və mövqe birliyi ilə gedir. AMEA-nın timsalında Azərbaycanın elm adamları da bu qənaətdədirlər. Bu qənaət AMEA Rəyasət Heyətinin milli ideyaya həsr olunmuş son seminarında yekdilliklə qəbul edilmişdir. AMEA güclü lideri milli ideyanın reallaşmasının başlıca qüvvəsi kimi gördüyünü ifadə etmişdir! Bizcə, tamamilə perspektivli, real vəziyyətə uyğun və müstəqil dövlətçiliyə xidmət edən mövqedir! Belə alınır ki, Azərbaycan cəmiyyət olaraq Prezidentə milli ideya ilə bağlı tam dəstək verir. Deməli, qarşıdakı mərhələdə də milli ideya reallaşacaqdır!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# Fransanın üzqaralığı – "Qara qitə"dəki qara əməlləri

**Azərbaycan öz dövlət müstəqiliyini bərpa edəndən sonra müxtəlif ölkələrdəki bədxahlarımız və bizə qarşı püskürülən qarayaxmalarla düşmənlərimizin "əlinə oynayanlar" son zamanlar sanki bir idman komandası yaradırmış kimi birləşmək istəyirlər. Təəssüf ki, Fransa prezidenti Emmanuel Makronun "kapitanlıq etdiyi" bu "komanda"da uzun illər dostluq və tərəfdaşlıq etdiyimiz ölkələri təmsil edən "legionerlər" də görünür. Şəxsən mən on illər ərzində bizimlə dostluq etmiş, Azərbaycanın təbii sərvətlərindən bəhrələnmiş ABŞ və Avropa İttifaqı təmsilçilərini də keçmişi müəmmalı, gələcəyi qaranlıq olan Emmanuel Makronun rəhbərlik etdiyi "komandada" görəndə çox təəccübləndim.**

Axı, bu Makron hakimiyyətə gəldiyi gündən bəri öz ölkəsində heç bir uğura imza ata bilməyib. Ölkədə daxili sabitlik pozulub, iqtisadiyyat çökməkdə davam edir. Onun düşünülməmiş addımları nəticəsində öz reytinqi Fransada, rəhbərlik etdiyi dövlətin nüfuzu isə beynəlxalq aləmdə durmadan, hətta, hər gün, hər saat azalır. O da təəccüblüdür ki, 44 günlük İkinci Qarabağ müharibəsindən sonra – bir az da dəqiqləşdirsək, 2022-ci il aprelin 23-də Bakıda olarkən Azərbaycan xalqını və dövlətimizi tarixi qələbə münasibətilə təbrik etmiş və Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, eləcə də, Cənubi Qafqaz regionunda davamlı sülhün təmin olunması məqsədilə səylərini bundan sonra da davam etdirəcəyini söyləmiş Avropa İttifaqı Şurasının sədri Şarl Mişel də indi Emmanuel Makronun diktəsi ilə oturub-durur. Maraqlıdır, erməni diasporu Mişelə nə yedirdisə, o da yüz səksən dərəcə geri döndü.

Yeri gəlmişkən, onun sədrlik etdiyi Avropa İttifaqı Şurası da axır zamanlar böhranlı günlərini yaşayır. Mişel Bolqarıstan, Niderland, İsveç və Çexiyadan olan yüksək vəzifəli şəxslərin Avropa Parlamentinə seçkilərdən sonra icmanın yeni siyasi dövrünün prioritetlərini müzakirə etmək üçün toplaşdığı Vilnüsdə jurnalistlərə müsahibəsində sanki ağlamaq istəmişdi: "Bizi inanılmaz çətin günlər və çağırışlar gözləyir. Avropa İttifaqını gücləndirmək və təhlükəsizliyi təmin etmək üçün mümkün olan hər şeyi etmək lazımdır". Qəribə yanaşmadır: Bir tərəfdən Avropa İttifaqının gücləndirilməsi zərurətindən danışır, digər tərəfdən isə qurumun ən sədaqətli və sınanılmış tərəfdaşlarından olan Azərbaycanın "ayağının altını qazır".

Bu məsələ qalsın bir yanda. Hələlik, yeni formalaşdırılan anti-Azərbaycan "komanda"nın "kapitanı" Emmanuel Makron haqqında qeydlərimizi davam etdirək. O, prezident seçiləndən sonra Fransanın Afrikadakı nüfuzu tamamilə ayaq altına düşür. O səbəbdən də ötən il martın əvvəlində Afrika turnesinə çıxmışdı. Pis günə düşmüş imicini xilas, ölkəsinin nüfuzunu bərpa etmək istəyən Makron səfərdə özünü elə göstərmişdi ki, guya, bu bölgənin problemlərinə yeni yanaşmasını nümayiş etdirməyə çalışır. And-aman eləmişdi ki, Fransa Afrika ölkələrinin daxili işlərinə qarışmayacaq və onlarla tərəfdaş münasibətləri quracaq. Çıxışlarında əsas diqqəti biznes və humanitar əməkdaşlığa yönəldən Makron öz istəyinə nail ola bilməmiş və əksinə, regionun bir çox ölkəsində bu turne faktiki olaraq, Parislə afrikalı tərəfdaşları arasında münasibətlərin pisləşməsinə daha bir təkan olmuşdu.




Ekspertlər yazırlar ki , Makron Afika ölkələrində açıq etirazlarla qarşılanan ilk Fransa prezidenti olub. Hətta, Konqo Demokratik Respublikasının Prezidenti Feliks Çisekedi Paris rəsmisi ilə mübahisə etməkdən belə, çəkinməyib.

(Xatırladaq ki, bu gün Afrikada Konqo adlı iki dövlət var – paytaxtı Kinşasa olan Konqo Demokratik Respublikası və paytaxtı Brazzavil olan Konqo Respublikası. Son günlər ölkəmizə səfər edən Deni Sassu Nqessu Konqo Respublikasının Prezidentidir). Prezidentlərin açıq və əsəbi deyişməsi Çisekedinin fransalı həmkarına rəsmi Parisin 1994-cü ildə baş vermiş soyqırımında iştirak etdiyini xatırlatmasından sonra baş verib. Mətbuat yazır ki, Çisekedi Fransanın Konqoda təhlükəsizliyin bərpasına necə kömək edəcəyi ilə maraqlanıb. Bu zaman Makron ona diplomatik cavab vermək əvəzinə, jurnalistlər qarşısında həmkarı ilə söz atışmasına başlayıb, Fransanın üzərinə atılan məsuliyyəti qəbul etmədiklərini söyləyib: "Mən həqiqət tərəfdarıyam. Amma bu həqiqət tam olmalıdır. Mən bu yükü çiyinlərimə götürməkdən imtina edirəm. Fransa sizin üçün "yaxşı iş" görməli deyil. Bu, sizin vəzifənizdir",– deyə Makron həmkarına kobudcasına cavab verib.

Diqqət yetirin, uzun illər müstəmləkəçilik etdiyi, təbii sərvətlərini talayıb daşıyaraq, əhalisini ac-yalavac qoyduğu ölkədə hansısa problemin həllinə kömək etmir və "bu, sizin vəzifənizdir" – deyərək, problemlərin kasıb ölkənin üzərinə yüklənməsinə çalışır.

"Mən həqiqət tərəfdarıyam!" – deyən bu riyakardan soruşmaq lazımdır: Otuz il Azərbaycan ərazilərinin iyirmi faizini işğal altında saxlayaraq, viranəyə çevirən vəhşi tayfanın müdafiə edilməsi də həqiqətdirmi? BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrasına mandat almış həmsədr kimi 28 il beynəlxalq ictimaiyyəti, Türk dünyasını və bütün azərbaycanlıları aldatmaq cəhdi də həqiqət tərəfdarı olmaqdırmı? Yoxsa altmışdan çox məscidin, yüzlərlə tarixi-mədəni abidəni darmadağın edilməsinə haqq qazandırmaq göstəricisidir?

Yeri gəlmişkən, Fransanın Afrikadakı müstəmləkəçilik siyasəti haqqında olan bəzi materiallara baxanda Rafael Qronvu adlı avropalı müəllifin xeyli əvvəl "Anadolu" agentliyinə verdiyi "Fransız ordusu Afrikada nə ilə məşğuldur?" adlı müsahibədəki bəzi məqamlarla rastlaşdım. Orada qeyd edilir ki, bu ölkənin Afrikada həyata keçirdiyi "əməliyyatlar" əhalinin qırılması ilə nəticələnir: "Fransa son on illərdə (ötən əsrin yetmişinci illərindən sonranı nəzərdə tutur – İ.M.) Afrikada reallaşdırdığı hərbi əməliyyatlar nəticəsində həlak olan yerli əhalinin sayını cidd-cəhdlə gizlətməyə çalışır. Bu ölkə Afrikada müstəmləkəçiliyə etiraz edən yerli əhaliyə qarşı törətdiyi qırğınların hamısını "terrorizmlə mübarizə" adlandırır.

Üstəlik, Parisin hərbi əməliyyatları konkret olaraq, hansısa bir ölkədə deyi, bütövlükdə, Afrika qitəsində aparılır. İyirmi iki il əvvəl Kot-di Uarda həyata keçirilmiş və çoxsaylı insan qırğınına səbəb olmuş hərbi əməliyyatı rəsmi Paris "humanitar xarakterli addım" adlandırmışdı. Həmin əməliyyat başa çatandan sonra məlum olmuşdu ki, Fransa bu ölkədə heç bir problemin həllinə nail ola bilmədi. Beləliklə, Fransa 1960-cı illərdən bəri xarici ölkələrdə üç yüzədək hərbi əməliyyat keçirmiş və həmin faktların hamısını "antiterror əməliyyatı" və ya "humanitar xarakterli addım" adlandırmışdır.

Bütün bu eybəcərlikləri dünya ictimaiyyətinə məlum olan dövlətin başçısı indi Azərbaycana dərs vermək istəyir ki, gəlin, erməniləri çox da incitməyin. Yəni, bu adam həm yolunu azır, həm də yerini bilmir. Yeri gəlmişkən, ABŞ Dövlət katibi Antoni Blinken bir neçə gün əvvəl yenə də Emmanuel Makrona öz yerini göstərdi. Belə ki, Rusiya – Ukrayna müharibəsi haqqlnda danışan Makron bəyan etmişdi ki, anti-Rusiya koalisiyasındakı ölkələrin əsgərləri NATO kontingentinin tərkibində Ukraynaya gedəcək. Bu sərsəmləməni eşidən Blinken dərhal açıq bəyanat verdi: "Ukraynaya bir nəfər də olsun, ABŞ hərbçisi göndərilməyəcək."

Belə olanda deyirlər ki, "ayıbını qara torpaq örtsün!" Amma o da var ki, Makronun ayıbları üstü örtüləsi səviyyədə deyil.

***İttifaq MİRZƏBƏYLİ***

# "Gallup"ın sorğusu: Nikol getsin, "yeni Paşinyan" gəlsin

## Beynəlxalq qurum erməni baş nazirə hansı mesajı çatdırır?

**Dünyanın məşhur sorğu təşkilatı olan "Gallup" Beynəlxalq Assosiasiyası Ermənistanda ictimai rəyi öyrənib və iki nəticəyə gəlib. Birincisi, baş nazir Nikol Paşinyanın reytinqinin həddən artıq aşağı düşməsi. İkincisi, ölkədə Rusiyanın nüfuzunun xeyli geriləməsi. Söhbətimiz bu barədədir. Mövzu ilə bağlı "Gallup"ın Ermənistan nümayəndəliyinin rəhbəri Aram Navasardyanın fikirlərini diqqətə çatdıracağıq. Əlbəttə ki, onun bildirdikləri əsasında formalaşmış qənaəti də həmçinin. Ancaq qənaətimizi möhkəmləndirmək üçün əvvəlcə "Gallup" barədə məlumat verək.**




***

Beləliklə, "Gallup International Association" adı ilə dünya brendinə çevrilmiş təşkilat 1935-ci ildə yaradılıb. 1947-ci ildə İsveçrənin Sürix şəhərində qeydiyyatdan keçib. Qeydiyyat məkanı kimi İsveçrənin seçilməsi təsadüfi deyil. Axı, ölkə o zamandan əbədi bitərəfliyini elan edib. "Gallup" da özünü tərəfsiz sayır. Görək necə?..

"Gallup"ın məqsədi daxili və xarici siyasət məsələləri ilə bağlı müntəzəm ictimai sorğular keçirməkdir. Təşkilat ABŞ-da ictimai rəyin vəziyyəti haqqında ən etibarlı məlumat mənbələrindən biridir. Çox güman, onun beynəlxalq nüfuzunu şərtləndirən də elə məhz budur. Əlbəttə, başqa amillər də nəzərə alınmalıdır...

1984-cü ildə Corc Gallupun ölümündən sonra qurum 1969-cu ildə Donald Klifton tərəfindən qurulan psixoloji tədqiqat şirkəti olan Seleksiya Araşdırmaları Birliyi tərəfindən satın alınmışdı. Bundan sonra müxtəlif ölkələrdə "Gallup" brendinin mülkiyyəti ilə bağlı münaqişələr davam etmişdi. Hətta, C.Gallupun oğlu Aleks assosiasiyanın 50-dən çox üzvünün adında "Gallup" sözünün işlədilməsi hüququna etiraza cəhd göstərmişdi. Mövcud istiqamətdəki proseslərin hansı nəticələri doğurduğu məlum deyil. Elə "Gallup" Beynəlxalq Assosiasiyasının hazırkı missiyası da məchuldur.

***

Missiyadan söz düşmüşkən, dünya sorğu brendinə çevrilmiş "Gallup" sırf Qərbyönümlü təşkilatdır və onun müxtəlif ölkələrdə ictimai rəyin manipulyasiyası ilə məşğul olduğuna dair faktlar yetərincədir. Ermənistana gəldikdə isə qurum bir vaxtlar keçirdiyi sorğularla sabiq prezident Serj Sarkisyan barədə "ölüm hökmü" çıxarmış, hazırkı baş nazir N.Paşinyanı və komandasını "göylərə qaldırmışdı". Elə isə hazırda nə üçün Nikol, obrazlı desək, göylərdən yerə endirilir. Səbəb nədir? Bunu yazının gedişində bildirəcəyik, daha doğrusu, diqqətə çatdıracaqlarımız fonunda məsələ ilə bağlı rəy formalaşacaq.

Sual yaranır: Görəsən, "Gallup" nə üçün N.Paşinyanın reytinqi ilə Rusiyanın Ermənistandakı nüfuzunu eyni tutur? Qəribə deyilmi? Nəzərə alsaq ki, "Gallup" bir Qərb təşkilatıdır, indiki həssas məqamda onun Nikolu gözdən salmaq cəhdində bir çox mətləblər var. Maraqlı nəticə hasil olur. Buradan Ermənistanın hazırkı iqtidarının boynuna biçilmiş missiya da açıq-aydın görünür. Söhbət Rusiya ilə mübarizədən gedir. "Gallup"ın Ermənistan nümayəndəliyinin rəhbəri Aram Navasardyan da vurğulayır ki, ölkənin hazırkı iqtidarı anti-Rusiya ritorikasını gücləndirmək üçün çox çalışır. "Əmma"-sı budur ki, Paşinyanın Rusiya ilə, həm də Ermənistandakı rus təsiri ilə mübarizəsi Qərbdə müsbət qarşılanmır. Belə görünür, ondan daha qətiyyətli addımlar atmaq tələb olunur. Deməli, Nikolun reytinqində ciddi "eniş" həmin qətiyyətli addımları ata bilmədiyi üçün yaranır.

Əlbəttə, Paşinyan administrasiyasının ölkədəki nüfuzu aşağı düşüb. Bunun bir çox səbəbləri var. Nikolun hakimiyyətə gəldikdən sonra verdiyi "dağı dağ üstə qoymaq" vədi yerinə yetməyib. 44 günlük müharibə acınacaqlı vəziyyət doğurub. Üstəlik, erməni cəmiyyətində xronoloji xəstəliyə çevrilmiş Qarabağ avantürizmi sıradan çıxıb. Mövcud fonda "Gallup"ın sırf Rusiya üzərinə köklənməsi onu göstərir ki, Qərbdə Nikoldan istəklər başqadır. Belə görünür və həm də tam aydındır ki, o, hakimiyyətə gətiriləndə qarşısına qoyulmuş məqsəd Ermənistanı Moskvanın təsirindən uzaqlaşdırmaq olub.

Əslində, erməni baş nazirin məqsədə doğru seçdiyi metod da aydındır. Nikol Qarabağ məsələsinin prinsipcə Rusiya ilə bağlılığını gözəl dərk edirdi. Ona görə onun hakimiyyətə gəldikdən sonra Azərbaycanla danışıqlar prosesini dalana dirəməsi, habelə verdiyi avantürist bəyanatların təkcə ölkəmizə deyil, eyni zamanda, Rusiyaya qarşı yönəldiyini vurğulamaq mümkündür. Ancaq burada maraqlı nüans var. Paşinyan Qarabağdan tamamilə imtinanı düşünmürdü. İstəyi bu idi ki, bölgə xüsusundakı erməni avantürizmi Kremlin patronajlığından çıxıb Qərbin egidası altına girsin. Elə indi də məqsəd eynidir.

Ancaq Qərbin Ermənistanı anti-Rusiya cəbhəsinə çevrimək niyyəti və bu niyyətdən irəli gələrək, Moskvanı tamamilə Cənubi Qafqazdan sıxışdırmaq məqsədi Ermənistanın Qarabağ avantürasından daha böyükdür. İkinci birincinin yanında lokal səciyyə daşıyır. "Gallup"ın sorğusu da Qərbin başlıca məramının rəsmi İrəvanın identikləşdirdiyi ambisiyalardan yüksəkdə dayandığının təsdiqidir. Deməli, assosiasiyanın nəticələrini Paşinyana mesaj kimi dəyərləndirmək mümkündür. Yəni, beynəlxalq sorğu brendi Nikola reallığı göstərir. Amma təkcə göstərmir, eyni zamanda, hədə-qorxu gəlir. Bu yerdə təşkilatın Ermənistandakı emissarı A.Navasardyanın fikirlərinə bir qədər əhatəli nəzər salaq.

Əlbəttə, A.Navasardyan açıq şəkildə deyə bilməz ki, Qərb Paşinyandan Rusiya ilə mübarizədə nəticə əldə etmədiyi üçün narazıdır. O, baş nazirin reytinqindəki enişin gözlənilən olduğunu vurğulayır, hətta bildirir ki, nəticələr fərqli, yəni müsbət olsaydı, təəccüblənərdi. Niyə? Çünki Navasardyanın sözlərinə görə, təhlükəsizliklə bağlı problemlərdən tutmuş sosial proqramların icrasınadək müxtəlif sahələrdə Ermənistanda uğursuzluqlar var: "Hesab edirəm ki, Paşinyan özü də resursunu artıq tükəndirib. Hətta yaxın altı ayda növbədənkənar seçkilər formasında təzahürlər olmasa belə, o zaman Paşinyanın hakimiyyət daxilində dəyişdirilməsi məsələsi ortaya çıxa bilər. Onun yerinə ehtiyat şəxslərdən biri təyin olunacaq. Çünki reytinqi artıq aşağı düşüb".

Hesab edirik ki, A.Navasardyanın "sosial proqramların icrasındakı uğursuzluqlar" məntiqindənsə, gətirdiyimiz iqtibasda vurğuladıqları daha önəmlidir. Təsəvvür edin, bu fikirləri söyləyən bir sorğu təşkilatının Ermənistandakı nümayəndəliyinin rəhbəridir. Prinsipcə, o, heç bir halda belə danışmamalıdır, öz gördüyü işdən, daha dəqiq desək, "Gallup"ın rəy sorğusunun xüsusiyyətlərindən söz açmalıdır...

A.Navasardyan kənarda yox, məhz Ermənistanın hakim komandası daxilində Paşinyana "əvəz axtarırsa", hər şey aydındır. Yəni, "Gallup"ın Ermənistandakı işi yalnız sorğu keçirmək deyil. Elə isə diqqət yetirək görək A.Navasardyan başqa nələrdən danışır. Beləliklə, "Gallup"ın Ermənistandakı başlıca fiqurun– "Paşinyanın dəyişdirilməsi" məntiqini genişləndirərək vurğulayır ki, Nikolu hakimiyyətə gətirənlərin indi görünməyən, lakin istənilən halda mövcud olan ehtiyat variantları var və bu dəyişiklik partiyanın özündə çox təcili həyata keçirilə bilər.

A.Navasardyanın sözləri yalnız həddini aşmaq deyil. Ancaq onun söylədiklərindən, eləcə də, Ermənistandakı hakim komandanın təmsilçilərinin zaman-zaman dediklərinin tonundan bir neçə nəticə hasil olur. Birincisi, Qərbin ölkədə "Vətəndaş sazişi"ndən başqa siyasi qüvvəsi yoxdur və onun bütün tərəfdarları bu hakim partiyada birləşiblər. Deməli, A.Navasardyanın "daxildən dəyişiklik" məntiqi keçərli sayıla bilər. Əslində, bu şəxs hər şeyi tam aydın deyir. Məsələn, o bildirir ki, Paşinyanın reytinqinin aşağılığı heç bir halda müxalifət partiyalarının fəallığının nəticəsi sayıla bilməz və əks cinahdan Nikola alternativ yoxdur. Yəni, Qərb üçün başqa qüvvənin önə çıxması qəbuledilməzdir.

İkincisi, "Vətəndaş sazişi" daxilində yeni Paşinyan, yəni yeni baş nazir olmaq uğrunda mübarizə gedir. Əslində, mübarizənin işartılarını görmək mümkündür. Nəzərə alsaq ki, başlıca məqsəd Rusiyanı Ermənistandan çıxarmaqdır, hakim siyasi qüvvənin təmsilçilərinin, necə deyərlər, Roma papasından artıq katolikliyə can atdıqları diqqətdən yayınmır. Məsələn, ölkənin təhlükəsizlik şurasının katibi Armen Qriqoryan və parlament sədri Alen Simonyan. Bu iki şəxs Moskva ilə ziddiyyət doğuran fikirləri ilə Nikoldan qat-qat irəlidədirlər. Yəni, Qərbə özlərini Paşinyandan daha yaxşı anti-rus kimi göstərirlər, sanki baş nazirlə yarışa girişiblər.

***

Sonda bir təzadı vurğulayaq. Necə ola bilər ki, Paşinyanın da, Rusiyanın da Ermənistandakı nüfuzu kəskin şəkildə aşağı düşsün? Özü də eyni vaxtda. Elementar məntiq var, axı. O məntiqə görə, Kreml Ermənistanda populyar deyilsə, deməli Nikol yaxşı işləyir. Ancaq Paşinyan saydığını saysın, görək Qərb nə sayır. Bəli, bir daha vurğulayaq ki, "Gallup"ın sorğusunun nəticəsi Qərbin sırf Paşinyandan narazılığının nəticəsidir. Görünür, o, barıtı daha tünd edə bilmir. Bəs Nikolun başqası ilə dəyişdirilməsi necə həyata keçirilə bilər? Hər halda, A.Navasardyanın bildirdikləri Ermənistan parlamentinin iclasını çağırmaq kimi asan məsələ deyil.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Qriqoryanın "saman çöpü"

## Yaxud anti-Rusiya tezisi ilə anti-Azərbaycan ritorikasını uzlaşdırmaq cəhdi

**Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryan, bəlkə də, fərqinə varmadan hər şeyi ortaya qoyur. Əlbəttə, onun nələrisə nəzərə almadığını söyləmək bir o qədər yerinə düşmür. Sadəcə, ənənəvi anti-Rusiya ritorikası onda o qədər güclüdür ki, haqqında söz açacağımız hadisənin təfərrüatlarını açıqlaması baş katib üçün ciddi problem yaratmır. Hadisəyə gəldikdə isə bu, Azərbaycan-Ermənistan şərti sərhədində yaranmış gərginlikdir. Daha doğrusu, söhbət erməni silahlı birləşmələrinin Naxçıvan istiqamətində atəşkəsi pozmalarından, o cümlədən, sərhədə hərbi qüvvələr cəmləşdirmələrindən gedir.**

Bəli, A.Qriqoryan ölkəsinin İctimai televiziyasının efirindən bildirib ki, sərhəddə eskalasiya Azərbaycanın özündən daha çox Rusiyadan asılıdır. Baş katib Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın Ermənistan – Azərbaycan sərhədində mümkün gərginliyin səbəbləri ilə bağlı son bəyanatını şərh edərkən belə deyib. Zaxarova vurğulamışdı ki, eskalasiya "yalnız rəsmi İrəvanın Avropa İttifaqı, ABŞ və Böyük Britaniyaya regionda və ölkədəki vəziyyətə dağıdıcı təsir göstərməsinə nə dərəcədə imkan verməsindən asılıdır".

Yəni, M.Zaxarova demək istəmişdi ki, İrəvanı Bakı ilə konfrantasiyaya sürükləyən Qərbdir. Şübhəsiz ki, xanım diplomat fikirləri ilə diqqəti Ermənistan baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen və ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin dünən Brüsseldə keçirilmiş görüşünə yönəltmişdi. Elə Qriqoryanın söylədikləri də müəyyən mənada həmin görüşə fokuslanıb. Əlbəttə, o, Zaxarovaya cavab verir. Amma bu, iki dalaşan uşaqdan birinin qarşısındakının söyüşünə "özünsən" cavabından başqa nəyisə xatırlatmır. Hərçənd, burada başqa məqamlar da istisna deyil.



Əvvəldə vurğuladığımız fikrə qayıdaq. Bəli, Qriqoryanın fərqinə varmadan açıqladığı reallıq ondan ibarətdir ki, Ermənistan Brüssel görüşü öncəsi Azərbaycanla durumu gərginləşdirməyi düşünmüşdü. Ona görə də şərti sərhəddə atəşkəs pozulmuşdu. Bu, Brüsseldə İrəvanın razı salacaq müsbət nəticənin əldə edilməsi məqsədi ilə reallaşdırılmışdı. Axı görüşdə Ermənistanın təhlükəsizliyinin gücləndirilməsi müzakirə olunub və mövzu əvvəldən bəlli idi. Deməli, ölkə üçün təhlükəli durumun mövcudluğunu "əsaslandırmağa" və məsələni daha ciddi şəkildə qoymağa ehtiyac yaranmışdı ki, sözügedən sərhəd insidenti həmin ehtiyacı ödədi. Amma tam yox.

Ermənistan Brüssel görüşündən əvvəl Azərbaycanla vəziyyəti həm də ona görə gərginləşdirmişdi ki, duruma görə Rusiyanı günahlandırsın. Yəni, Qriqoryan yalnız Zaxarovanın sözlərinə cavab vermir, o, əvvəlcədən düşünülüb müəyyənləşdirilmiş tezisi gündəmə gətirir. Həmin tezisdə Azərbaycanla Rusiyanı eyni cəbhədə göstərmək başlıca motivdir. Belə yanaşma da Brüsseldə Ermənistan üçün daha sərfəli nəticələrin əldə edilməsi məramından qaynaqlanır.

Əslində, A.Qriqoryanın dediklərinə başqa rakursdan da baxmaq mümkündür. Yada salaq ki, həm A.Blinken, həm də Ursula Fon der Lyayen Paşinyanla dünənki görüşdən əvvəl Azərbaycan Prezidenti İlham Əliyevə zəng etmişdilər. Bu zənglər sözügedən təmasın Azərbaycana qarşı yönəlmədiyinə əminlik yaratmaq məqsədi daşımışdı. İndi isə erməni baş katib Rusiya məntiqini qabardır.

Deməli, bəlkə Blinkenin və Lyayenin Prezident İlham Əliyevə bildirdiklərində səmimiyyət payı istisna deyil. Ancaq burada maraqlı məqam da var. Bəli, Zaxarova Brüssel görüşünün Rusiyaya qarşı yönəldiyini vurğulayıb əndişələnməkdə haqlıdır. İki Avropa liderinin dövlətimizin başçısına zəngi həm də Qərbin Azərbaycanı anti-Rusiya ritorikasından kənar saxladığının təsdiqidir. Qriqoryanın Moskvanın sərhəd gərginliyinin təşəbbüskarı olduğunu vurğulaması isə o deməkdir ki, ABŞ və Avropadan fərqli olaraq, İrəvan Azərbaycanın Rusiya ilə eyni cəbhədə yer aldığına dair təsəvvürlər formalaşdırmaqda qərarlıdır. Belədə, əlbəttə, Blinkenin və Lyayenin səmimiyyəti şübhə doğuracaq.

Qərbin Azərbaycan – Ermənistan münasibətləri fonundakı səmimiyyətinə həm də ona görə şübhə yaranır ki, həm Avropa, həm də ABŞ mahiyyətcə erməni avantürizmini cilovlamaqda maraqlı deyillər. Onlar Rusiyanın Cənubi Qafqazdan sıxışdırılması üçün rəsmi İrəvanın çıxardığı bütün oyunlara dözümlü yanaşırlar. Ona görə də Brüssel təmasının anti-Azərbaycan mahiyyət daşımadığını bildirmək çətindir. Çünki Ermənistan dövləti, onun təmsilçisi kimi A.Qriqoryanın özü də müxtəlif beynəlxalq tribunalarda Azərbaycana əks tezislər gündəmə gətirir. Beləliklə, Cənubi Qafqazda sülhə qarşı çıxdığını ortaya qoyur. Təkcə Qriqoryan deyil, digər erməni rəsmiləri də eyni yolu tuturlar.

Bəli, Qərbin erməni avantürizmini cilovlamaq üçün nə icra mexanizmi var, nə də belə bir mexanizmi formalaşdırmaq niyyəti. Qriqoryanın sonuncu açıqlaması bunun təsdiqidir. Ermənistan şərti sərhəddə gərginlik yaradıb Rusiyanı Azərbaycanı hərəkətə gətirən tərəf kimi görməkdə israrlıdırsa, deməli, bu, həm də Brüssel görüşünə Rusiya təmayüllü anti-Azərbaycan motivi qazandırmaq cəhdidir.

Əlbəttə, Qriqoryanın cəhdi "saman çöpü"ndən yapışmaqdır. Bu mənada, Belçika paytaxtının Ermənistan üçün bataqlıq olduğunu söyləyə bilərik. Nəzərə alaq ki, Qərb heç zaman etibarlı olmayıb. Rusiyanın Ermənistana münasibətdə etibarlı davranması isə görünür, tamamilə aradan qalxıb. O zaman rəsmi İrəvan boğulmağında olsun. Çünki hazırda Qriqoryanın batmaması üçün heç "saman çöpü" də yoxdur.

***R.ƏVƏZ***
***XQ***

# Korrupsioner senatorların Qarabağ separatçıları üçün azadlıq tələbi

(əvvəli 1-ci səhifədə)

Əlbəttə, sözügedən çağırışda ümumən ölkəmizdə saxlanıldığı iddia edilən hərbi əsirlərin də azad olunması üçün kömək göstərilməsi tələb olunur. Eyni zamanda, belə görünür, senatorlar köhnə havadadırlar. Onlar məktublarında Qarabağ ermənilərinin hüquqlarının təmin edilməsindən də söz açaraq bildiriblər ki, Azərbaycanın, guya, bölgədə həyata keçirdiyi soyqırımı siyasəti məsuliyyət yaradır və mövcud istiqamətdə tədbirlərin görülməməsi ədalətin qərarlaşmasına yönələn səylərə zərbə vurur. Senatorlar, həmçinin cəzasızlıq mühitinin Bakını yeni işğallara həvəsləndirdiyi kimi cəfəng məntiqlərini də işə salıblar. Onların üzərində dayandıqları başlıca məqamlardan biri də Qarabağ ermənilərinin öz yaşayış yerlərinə dinc və təhlükəsiz qayıdışlarının təminatının fundamentallığıdır. Görəsən, fundamentallıq nə deməkdir?

Aydındır ki, Azərbaycan dövləti dəfələrlə Qarabağın erməni əhalisinin bölgəyə qayıdışına təminat verdiyini açıqlayıb. Mövcud xüsusda onların Azərbaycan vətəndaşı kimi ömür sürmələri və vətəndaşlıq hüquqlarından yararlanmaları üzərində dayanılıb. Lakin bu, nə rəsmi İrəvanı razı salır, nə də Ermənistanın xaricdəki havadarlarını. Onlar əvvəlcə xüsusi beynəlxalq təminat amilini qabardır və məsələni Bakı–İrəvan sülh gündəliyinə gətirmək istəyirdilər. Lakin iddianın gerçəkləşməsi mümkün olmadığından, erməni iqtidarı mövcud ritorikanı sülh gündəliyindən kənar saxladı. Ancaq bu yanaşma rəsmi İrəvanın beynəlxalq miqyasda apardığı anti-Azərbaycan təbliğatının başlıca tərkib hissəsi kimi qaldı. O cümlədən, ölkəmizin, guya, Qarabağda etnik təmizləmə siyasəti gerçəkləşdirdiyinə dair məqamlar da.

Bəli, amerikalı senatorların Qarabağ ermənilərinin hüquqlarının təminatı müstəvisindəki "fundamentallıq tələbləri", haqqında söz açdığımız sərsəm baxışdan qaynaqlanmaqdadır. Sərsəmliyin nəticəsidir ki, senatorların birgə müraciətlərində Ağ Evə ünvanlanmış ittiham da yer alıb. Sən demə, Birləşmiş Ştatlar administrasiyası bölgənin erməni əhalisinin geri qayıtmaq hüququnun olduğunu



bildirsə də, mövcud istiqamətdə heç bir tədbir görməyibmiş. Başa düşmək olmur, ABŞ güclə onların yaşayış yerlərinə dönmələrini təmin etməli imiş? Rəsmi Vaşinqton nə deməli idi? Onun dediyini Azərbaycan dövlətinin təmsilçiləri də bildirirlər. Ancaq Ermənistan rəhbərliyi Qarabağ ermənilərinin ölkəmizin vətəndaşı olmalarını istəmir, onlara hesablanmış oyunlar qurur. Elə haypərəst senatorlar da həmin oyunların iştirakçılarıdırlar.

Əlbəttə, senatorların Ağ Evə ünvanladıqları mənasız kağız parçasının ən böyük həyasızlıq motivi, əvvəldə də vurğuladığımız kimi, artıq canını tapşırmış separatçı rejimin rəhbərlərinin həbsdən azad edilməsi ilə bağlıdır. Məktubda onların hər birinin adı çəkilir. Maraqlı məqam budur ki, Ermənistan rəhbərliyi sırf bu məsələni irəli sürmür. Daha doğrusu, üstüörtülü qabardır. Axı baş nazir Nikol Paşinyan administrasiyasının təmsilçilərinin sabiq xunta rejiminin rəhbərlərindən zəhlələri gedir, istəyirlər ki, separatçıbaşıları Bakı həbsxanalarında çürüsünlər. Görünür, bu istəyin ABŞ-dakı erməni lobbi və diaspor təşkilatlarının nümayəndələrinə heç bir aidiyyatı yoxdur. Necə deyərlər, onların öz havaları var. Hazırda Birləşmiş Ştatların senatorlarının həmin havalara, obrazlı desək, qol qaldırıb oynamaları isə son dərəcə miskin mənzərə formalaşdırır. Çünki bəşəri dəyərlərlə aşkar manipulyasiyaya köklənmiş bu mənzərə beynəlxalq hüquq prinsiplərinə həqarətdən başqa bir şey deyil.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İndi bütün yollar Qarabağa aparır...



**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına görə, bu layihələrdən uzunluğu 28,5 kilometr olan Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolu 2020-ci ildə, uzunluğu 101,5 kilometr təşkil edən "Zəfər yolu" 2021-ci ildə inşa edilib. 2022-ci ildə Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolunun (uzunluğu 22 kilometr, 2-3 hərəkət zolaqlı) tikintisi başa çatdırılıb.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 2021-ci il oktyabrın 17-də Füzuli rayonuna səfəri zamanı təməli qoyulan Ağdam-Füzuli avtomobil yolunun inşası hazırda sürətlə davam etdirilir. Sözügedən yol Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğalçıdan təmizlənən rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrindən biri sayılır. Uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla sürətlə tikilir.

Yolun 0-32,4 kilometrlik hissəsində layihə çərçivəsində 36 ehtiyat keçidinin, 31 dairəvi su ötürücü borunun və 3 körpünün inşası 90 faiz tamamlanıb. Bundan başqa, bitki qatının çıxarılması və qazma işləri 100 faiz, torpaq yatağının tikintisi 92 faiz yerinə yetirilib.

Bərdə-Ağdam avtomobil yolunun davamı olan Ağdam-Füzuli avtomobil yolu Ağdam, Ağcabədi, Füzuli rayonları ərazisindən keçir. Yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yol boyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.

Qeyd edək ki, cari il Ağdam-Əsgəran-Xocalı-Xankəndi-Şuşa (34 kilometr), Tərtər-Ağdərə (24,2 kilometr) və Füzuli- Xocavənd-Ağdam (55,7 kilometr) avtomobil yolları da beynəlxalq standartlara uyğun yenilənəcək.

Ötən il yenidən qurulmasına başlanılan Suqovuşan–Sərsəng su anbarı–Qozlukörpü–Kəlbəcər (uzunluğu 80 kilometr), Ağdərə–Ağdam (35,5 kilometr) və Şuşa-Laçın (41 kilometr) avtomobil yollarında isə tikinti işləri davam etdirilir.

İşğaldan azad olunmuş ərazilərdə inşaat işləri həyata keçirən Türkiyənin "Proyapı" şirkətinin İdarə Heyətinin sədr müavini Akif Aygen mediaya müsahibəsində Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolunun Zəngilan beynəlxalq hava limanına qədər olan hissəsinin tamamlanmaq üzrə olduğunu bildirib. "Böyük ehtimalla yol bu ilin sonuna qədər hazır olacaq. Hazırda yol üzərindəki 3 tuneldə betonlaşdırma işləri aparılır", – deyə o qeyd edib.

Xatırladaq ki, strateji əhəmiyyətə malik Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu başlanğıcını Füzuli rayonunun Əhmədbəyli kəndindən götürməklə layihələndirilib. Yolun uzunluğu 124 kilometrdir.

Yol Qarabağın inkişaf planı nəzərə alınmaqla 6 və 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Magistralın ilk 76 kilometrlik hissəsinin 3 gediş – 3 gəliş olmaqla 6, qalan 48 kilometrlik hissəsinin isə 2 gediş – 2 gəliş olmaqla 4 hərəkət zolaqlı olması nəzərdə tutulub.

Azərbaycanın işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81,6 kilometrlik Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun böyük hissəsinin inşası da başa çatıb. Cari ilin sonuna qədər həmin yolun inşasının tamamlanacağının nəzərdə tutulduğu bildirilib.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu 4-6 hərəkət zolaqlı olmaqla inşa edilir. Belə ki, yolun ilk 48 kilometri 6, 48-81.6 kilometr arası isə 4 hərəkət zolağından ibarətdir. Müvafiq olaraq yol yatağının eni 29,5 və 21,5 metr təşkil edir. Yolboyu 137 müxtəlif diametrli suötürücü boru, 30 yeraltı keçid, 7 körpü və 7 tunel tikilir.

Uzunluğu 75,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolu və onun üzərindəki tunellərin inşası isə 2025-ci ilin sonunda və yaxud 2026-cı ilin əvvəlində tamamlanacaq.

Kəlbəcər və Laçın rayonlarını birləşdirən bu avtomobil yolu 2, 3 və 4 hərəkət zolaqlı olmaqla, birinci və ikinci texniki dərəcələrə uyğun inşa edilir. Yol boyunca suların ötürülməsini təmin etmək məqsədilə ümumi uzunluğu 8 min 910 metr olan 66 dairəvi və 139 düzbucaqlı borunun, zəruri yerlərdə ümumi uzunluğu 4 min 179 metr olan 23 avtomobil körpüsünün və 1076 metr uzunluğa malik 3 qovşağın, həmçinin 4 min 248 metr istinad və 30 min 521metr daş divarın inşası işləri aparılır.

Kəlbəcər–Laçın avtomobil yolu başlanğıcını Kəlbəcərin Qamışlı kəndindən götürməklə Laçın rayonunun ərazisindən keçir. Yeni yol bu rayonların bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və inşası aparılan Laçın Beynəlxalq Hava Limanına qədər rahat gediş-gəlişi təmin edəcək.

Ümumiyyətlə, Qarabağda icra olunan yol infrastrukturu layihələri tədbirlər planına uyğun olaraq 15 layihədən 11-nin icrası 2024-cü ildə, üç layihənin 2025-ci ildə, bir layihənin isə 2026-cı ildə başa çatdırılması nəzərdə tutulub.

Cari ildə Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl-Hadrud, Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisi planlaşdırılıb. Bundan başqa, 2024-cü ildə Qubadlı-Eyvazlı, Qubadlı-Mahmudlu-Yazıdüzü-Ermənistan sərhədi, Horadiz-Tuğ-Azıx mağarası, Ağdam-Füzuli, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, İranla dövlət sərhədi avtomobil yolunun və Araz çayı üzərində avtomobil yolu körpülərinin tikilməsi də qərara alınıb.

Yeri gəlmişkən, 2024-cü ildə bölgədə Ağdam-Əsgəran-Xocalı-Xankəndi-Şuşa (34 kilometr), Tərtər-Ağdərə (24,2 kilometr) və Füzuli-Xocavənd-Ağdam avtomobil yolunun (55,7 kilometr) avtomobil yollarının da yenidən qurulmasına start veriləcək.

Sonda onu da qeyd edək ki, 2025-ci ildə Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Toğanalı-Kəlbəcər-İstisu, Kəlbəcər-Laçın avtomobil yollarının, 2026-cı ildə isə Ağdam şəhərinin daxili yollarının layihələndirilməsi və tikintisi işlərinin başa çatdırılması planlaşdırılır.

***Vaqif BAYRAMOV***
***XQ***

## Sumqayıt Kimya Sənaye Parkında karton istehsalatı

**İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti "UPI - Universal Packing Industry" Qapalı Səhmdar Cəmiyyəti (QSC) karton istehsalına başlayıb.**



QSC-nin bununla bağlı yayılan məlumatına görə, müəssisə karton istehsalı üçün tələb olunan xammalı Rusiyadan alır. Artıq Rusiyadan 560 ton xammal gətirilib.

Hazırda istehsal edilən məhsul daxili bazarın tələbatının ödənilməsinə yönəldilir. QSC daxili bazar tələbatının 30-40 faizini ödəməyi planlaşdırır. İstehsal olunan karton qida məhsulları, məişət texnikası və s. qablaşdırılması üçün istifadə edilir. Kartonlar müştərilərin sifarişlərindən asılı olaraq müxtəlif ölçüdə hazırlanır.

Qeyd edək ki, "UPI - Universal Packing Industry" QSC-yə 2019-cu ilin sentyabrında Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Müəssisənin ümumi investisiya dəyəri 4,8 milyon manatdan artıqdır. Zavod 2023-cü ilin oktyabr ayından fəaliyyətə başlayıb.

## Taksi fəaliyyətində yeni rüsumlar

**"Dövlət rüsumu haqqında" Qanuna əsasən, taksi fəaliyyəti göstərmək istəyənlərə buraxılış vəsiqəsi üçün dövlət rüsumu 125 manat, buraxılış kartı üçün isə 25 manat müəyyən edilib.**




Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi açıqlama yayıb. Qurumdan verilən məlumata görə, buraxılış vəsiqəsi taksi fəaliyyəti göstərmək istəyən hüquqi şəxslərə və ya fərdi sahibkarlara təqdim olunan icazə növüdür. Buraxılış kartı isə taksi kimi istifadə olunan nəqliyyat vasitəsi üçün nəzərdə tutulub.

***XQ***

## "Azərişıq" Bərdə elektrik şəbəkəsini təzələyir

**"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti regionlarda yenidənqurma işlərini davam etdirir. Hazırda qurum tərəfindən Bərdə şəhərinin elektrik təsərrüfatında bir sıra yenidənqurma işləri aparılır.**



"Azərişıq"dan XQ-yə verilən məlumata görə, aparılan yenidənqurma işləri çərçivəsində rayonun mərkəzi küçə və məhəlləlıri ilə yanaşı, kəndlərdə də köhnəlmiş elektrik şəbəkəsi yenisi ilə əvəzlənir. Ötən müddətdə rayonun Mustafaağalı, Arabaçılar, Qaratəpə kəndlərində yeni sayğaclar quraşdırılıb, müasir standartlara cavab verən 60 kilometrə yaxın izolyasiyalı elektrik xətti çəkilib.

Bununla yanaşı, adı çəkilən kəndlərdə 0,4 və 10 kV-luq köhnə dayaqlar yeni metal dayaqlarla əvəz edilib. Abonentlərin fasiləsiz və davamlı elektrik enerjisi ilə təmin olunması məqsədilə Mustafaağalı, Arabaçılar və Qaratəpə kəndlərində yeni 16 ədəd transformator da quraşdırılıb.

Qeyd edək ki, sözügedən kəndlərdə elektrik xətləri ötən əsrin 50-60-cı illərindən istismar edildiyi üçün elektrik enerjisinin verilişində bir sıra çətinliklər yaranırdı. Mustafaağalı, Arabaçılar və Qaratəpə kəndlərində yenidənqurma işləri başa çatdıqdan sonra, ümumilikdə, 1000-ə qədər abonent fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunacaq.

## Müasir kassa aparatları ilə dövriyyə çoxalıb

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən ölkədə yeni nəsil nəzarət-kassa aparatlarının (NKA) tətbiqi istiqamətində işlər davam etdirilir. İndiyədək ölkə ərazisində 97 min 192 ədəd NKA quraşdırılıb.**



İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətininin məlumatına əsasən, yeni nəsil NKA-lardan istifadə hesablaşmaların daha şəffaf aparılmasına, malların qanunsuz dövriyyəsinin qarşısının alınmasına və dövriyyəyə nəzarətin təmin edilməsinə imkan yaradıb. Təkcə onu qeyd etmək kifayətdir ki, 2024-cü ilin yanvar-mart ayları ərzində onlayn kassa aparatları vasitəsilə qeydə alınan dövriyyə 5,3 milyard manatdan artıq olub ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9,2 faiz çoxdur.

***XQ***

# "Azərkosmos"un rəqəmsal iqlim hesabatı

**Dünən Bakıda "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş konfransda "İqlim dəyişikliyinə kosmosdan baxış" adlı elektron platformanın təqdimatı keçirilib. Tədbir çərçivəsində, rəqəmsal iqlim hesabatı ilə yanaşı, "Azərkosmos"un "Yaşıl siyasət" sənədi də təqdim olunub.**



Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Kosmik Agentliyi idarə heyətinin sədri Saməddin Əsədov bildirib ki, ötən ildən BMT-nin "Qlobal Saziş" təşəbbüslərinə qoşulan "Azərkosmos" öz əməliyyatlarında kosmik aparatların inkişafı, buraxılışı, orbitdəki fəaliyyətini və kosmik obyektlərin idarə edilməsi zamanı ətraf mühitə təsirini minimuma endirməyi hədəfləyir. Diqqətə çatdırılıb ki, iqlim dəyişikliyi ilə bağlı "Climate Change from Space" platformasında 5 istiqamət üzrə 19 layihə öz əksini tapıb. İki dildə hazırlanmış platformanın əsas məlumat mənbəyinin "Azersky" peyki olduğunu diqqətə çatdıran qurum rəhbərinin sözlərinə görə, sənəddə göstərilən məlumatlar iqlim dəyişikliyi barədə məlumatlılıq səviyyəsinin artmasına töhfə verəcək.

Qeyd olunub ki, 2040-cı ilədək qlobal quraqlıq risklərinə məruz qalacaq ölkələrdən biri də Azərbaycandır. S. Əsədovun dediyinə görə, Azərbaycanda quraqlıq səviyyəsinin qiymətləndirilməsi zamanı müəyyən olunub ki, ölkə ərazisinin 15 faizi çox yüksək quraqlıq riski altındadır. "Azərkosmos" rəhbəri Gəncə-Daşkəsən bölgəsində vəziyyətin bu baxımdan daha təhlükəli olduğunu diqqətə çatdırıb. O deyib ki, peyk təsvirlərinin təhlilinə əsasən, son 7 ildə Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağlarında buzlaq sahələrində orta hesabla 18 faiz azalma müşahidə olunub.

"Azərkosmos" sədri daha sonra bildirib ki, son 100 ildə Azərbaycanda orta illik temperatur artıb ki, bunun da nəticəsində ötən 30 ildə Xəzər dənizinin səviyyəsi 2 metr azalıb. Bunun isə 1,5 metri son 5 ilə təsadüf edib. Bununla yanaşı, son tədqiqatlar nəticəsində məlum olub ki, Qızılağac Dövlət Qoruğunun ərazisindəki su hövzəsinin 40 faizi, bataqlıqların isə 52 faizi itirilib. Qurum rəhbərinin dediyinə görə, ölkə ərazisində yanğınların kosmik monitorinq təhlilinə əsasən, ötən il, ümumilikdə, 10 min 563 hektar ərazinin yandığı müşahidə edilib. Bununla yanaşı, atmosferin tərkibini dəyişdirən zərərli qazların həcmi də ilbəil artıb. "Bu gün hər kəs artıq iqlim dəyişikliyinin şahidi olur. Bunun üçün Xəzərin sahilinə getmək kifayət edir. Kosmik texnologiyalar iqlim dəyişikliyinin monitorinqinin ən mühüm vasitələrindən birinə çevrilib", – deyə "Azərkosmos" sədri əlavə edib.

Təqdimat mərasimində Azərbaycanın növbəti peykinin orbitə buraxılacağı vaxt da açıqlanıb. Bu barədə məlumat verən "Azərkosmos" rəhbəri deyib ki, ölkəmizin növbəti optik müşahidə peykinin 2026-cı ildə orbitə buraxılması nəzərdə tutulur. Yeri gəlmişkən, ötən il Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində "Azərkosmos" və "Israel Aerospace Industries" (IAI) şirkəti arasında Azərbaycanın yeni müşahidə peyklərinin hazırlanması üzrə əməkdaşlıq müqaviləsi imzalanıb.

S. Əsədov onu da qeyd edib ki, "Azersky-2" proqramı ölkədə Yer səthinin müşahidəsi sektorunda davamlılığı təmin etməklə yanaşı, biznes baxımından yeni səhifə açacaq, o cümlədən ölkədə kosmik ekosistemin daha da inkişafına xidmət edəcək. Müqaviləyə əsasən, "Azersky-2" proqramı çərçivəsində iki peyk hazırlanacaq. Bunlar, yüksək ayırdetməli elektro-optik sensora malik Yerin məsafədən müşahidə peykləri olacaq. "IAI" peyk qruplaşmasının ilk peykinin layihələndirilməsi, yığılması, inteqrasiyası və sınağını azərbaycanlı mütəxəssislərin iştirakı ilə aparılacaq. Bu zaman "IAI" proqram çərçivəsində Azərbaycanda "Azersky-2" sisteminin idarə olunması və istismarı üzrə bütün lazımi yerüstü sistemlər təmin ediləcək. Peykə nəzarət və peyk təsvirlərinin emal olunmasına dair yerli mütəxəssislərə təlim keçiriləcəyini bildirən S. Əsədovun sözlərinə görə, 2026-cı və 2028-ci illər ərzində peykləri orbitə qaldıracaq daşıyıcı raket isə növbəti aylarda məlum olacaq.

"Hazırda peyk məlumatları iqlim dəyişmələri, ətraf mühitin çirklənməsi və daşqınların proqnozlaşdırılmasında önəmli informasiya mənbəyinə çevrilib". Bu fikri isə ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva tədbirdə çıxışı zamanı səsləndirib. Onun sözlərinə görə, bu məlumatların xüsusilə iqlim dəyişmələri, ətraf mühitin çirklənməsi, daşqınların proqnozlaşdırılması, meşə yanğınlarının izlənilməsi, toz fırtınalarının mənbələrinin müəyyən olunması və proqnozların verilməsində mühüm rolu var. U.Tağıyeva əlavə edib ki, dünyanın qapalı su hövzələrində olan vəziyyət, gözlənilən risklər Azərbaycanda keçiriləcək COP29-da da əsas mövzulardan biri kimi müəyyən olunub.

Konfransda, həmçinin "Azərkosmos"un Coğrafi informasiya sistemləri mərkəzinin direktoru İsmət Baxışov, Kənd Təsərrüfatı Nazirliyinin Torpaqdan istifadəyə nəzarət şöbəsinin müdiri Firidun Tağıyev, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müşaviri Əsəd Şirinov, Birləşmiş Millətlər Təşkilatının Qlobal Sazişinin ölkə ofisi üzrə meneceri Samir Məmmədov çıxış edərək Azərbaycanda iqlim dəyişikliyinin dinamikası və təsirləri ilə bağlı fikir və mülahizələrini səsləndiriblər.

"Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş konfrans peyk təsvirlərindən dinamik şəkildə istifadə olunmasına dair fəal müzakirələrlə davam edib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Bərpaolunan mənbələrdə enerji hasilatı artır

**Energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabında bu ilin yanvar-fevral aylarında Azərbaycanda 4 milyard 686 milyon kVt-saat elektrik enerjisi istehsal olunduğunu bildirib.**



Nazir paylaşımında hesabat dövrü ərzində ölkə üzrə elektrik enerjisi ixracının 222 milyon kVt-saat, idxalının isə 33 milyon kVt-saat təşkil etdiyini vurğulayıb.

Qeyd olunur ki, yanvar–fevralda istilik elektrik stansiyaları üzrə 4 milyard 316 milyon kVt-saat, su da daxil olmaqla bərpaolunan enerji mənbələrindən 192 milyon kVt-saat artımla 370 milyon kVt-saat elektrik enerjisi istehsal edilib.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 187** **Bakı şəhəri, 2 aprel 2024-cü il**

**"Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 27 avqust tarixli 153 nömrəli, "Bələdiyyələrin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi haqqında" 2010-cu il 24 may tarixli 271 nömrəli, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli, "Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2014-cü il 17 noyabr tarixli 348 nömrəli, "Azərbaycan Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 7 mart tarixli 818 nömrəli və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 641-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2017-ci il 24 may tarixli 1419 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2401 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

"Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 27 avqust tarixli 153 nömrəli, "Bələdiyyələrin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi haqqında" 2010-cu il 24 may tarixli 271 nömrəli, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli, "Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2014-cü il 17 noyabr tarixli 348 nömrəli, "Azərbaycan Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 7 mart tarixli 818 nömrəli və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 641-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2017-ci il 24 may tarixli 1419 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2401 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Yaşayış sahəsinin xüsusi təyinatlı mənzil fonduna aid edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 118 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 562 (Cild I) 1-1-ci hissəsi ləğv edilsin.

**2.** "Çoxmənzilli binanın idarəedici təşkilatının seçilməsi üzrə açıq müsabiqə keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 128 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 694 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 fevral tarixli 105 nömrəli Qərarı) 2-ci hissəsi ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 sentyabr tarixli 303 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1127 (Cild I) ilə təsdiq edilmiş "Texniki nəzarətin həyata keçirilməsinin tələb olunmadığı tikinti obyektlərinin siyahısı"nın "Qeyd" hissəsi ləğv edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 sentyabr tarixli 304 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1128 (Cild I) ilə təsdiq edilmiş "Tikintiyə icazədə nəzərdə tutulan əlavə şərtlərin siyahısı və onların tətbiqi halları"nın "Qeyd" hissəsi ləğv edilsin.

**5.** "Tikintisinə icazə tələb edilən tikinti obyektlərinin istismarına icazə üçün müraciətə sifarişçi tərəfindən əlavə edilən tikinti sənədlərinin siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 16 sentyabr tarixli 309 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1133 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 56 (Cild I) ilə təsdiq edilmiş "Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları"nın 5-ci hissəsi ləğv edilsin.

**7.** "Müfəssəl planların hazırlanması, razılaşdırılması və təsdiq olunması qaydaları, habelə həmin planların razılaşdırıldığı orqanların siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 5 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 57 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli Qərarı) 2-ci hissəsi ləğv edilsin.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 6 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 58 (Cild I) ilə təsdiq edilmiş "Müfəssəl plan olmadığı və ya onun müddəti bitdiyi hallarda tikintiyə icazə verilməsi və ya məlumatlandırma icraatı məqsədləri üçün tikinti layihələrinin onların həyata keçiriləcəkləri ərazinin planlaşdırılması sənədlərinə (baş planlara və (və ya) ümumi planlara), habelə müfəssəl planın hazırlanması zamanı nəzərə alınan tələblərə uyğunluğunun müəyyənləşdirilməsi Qaydaları"nın 5-ci hissəsi ləğv edilsin.

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 fevral tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 217 (Cild I) ilə təsdiq edilmiş "Tikinti materiallarının və məmulatının standartlara uyğunluğunun yoxlanılması Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 23 fevral tarixli 46 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 235 (Cild I) ilə təsdiq edilmiş "Tikinti obyektlərinin mühəndis-kommunikasiya təminatı Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 iyul tarixli 264 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1344 (Cild I) ilə təsdiq edilmiş "Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması ilə bağlı hallar"ın "Qeyd" hissəsi ləğv edilsin.

**12.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 531 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2246 (Cild I) ilə təsdiq edilmiş "Təhlükə potensiallı və dövlət əhəmiyyətli tikinti obyektlərinin Siyahısı"nın "Qeyd" hissəsi ləğv edilsin.

**13.** "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 20 yanvar tarixli 10 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 124 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**14.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 fevral tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 303 (Cild I) ilə təsdiq edilmiş "Təhlükə potensiallı və ya dövlət əhəmiyyətli tikinti obyektlərinin tikintisinə icazə ilə bağlı əlavə tələblər"in "Qeyd" hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 188** **Bakı şəhəri, 2 aprel 2024-cü il**

**"Azərbaycan Respublikası Prezidentinin "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 13 fevral tarixli 1196-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2015-ci il 10 aprel tarixli 500 nömrəli, "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin yaradılması ilə bağlı tədbirlər haqqında" 2017-ci il 2 fevral tarixli 1223 nömrəli, "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 28 fevral tarixli 1847 nömrəli, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1176-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 iyul tarixli 163 nömrəli, "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında" 2018-ci il 6 iyul tarixli 170 nömrəli və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1175-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 13 iyul tarixli 193 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2396 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikası Prezidentinin "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 13 fevral tarixli 1196-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2015-ci il 10 aprel tarixli 500 nömrəli, "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin yaradılması ilə bağlı tədbirlər haqqında" 2017-ci il 2 fevral tarixli 1223 nömrəli, "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 28 fevral tarixli 1847 nömrəli, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1176-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 iyul tarixli 163 nömrəli, "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında" 2018-ci il 6 iyul tarixli 170 nömrəli və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1175-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 13 iyul tarixli 193 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2396 nömrəli Fərmanının 8-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 oktyabr tarixli 324 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1238 (Cild I) ilə təsdiq edilmiş "Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi Qaydası"nın 6-cı hissəsi ləğv edilsin.

**2.** "Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasi-yasının tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 2 avqust tarixli 313 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1603 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin Nizamnaməsi"nin və 2 nömrəli əlavə - "Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin Strukturu"nun "Qeyd" hissələri ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 3 may tarixli 201 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 1111 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin Nizamnaməsi"nin "Qeyd" hissəsi ləğv edilsin.

**4.** "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 iyun tarixli 266 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1365 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

**5.** "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 iyul tarixli 292 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7, maddə 1626 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

**6.** "Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun strukturu, işçilərinin say həddi və əməkhaqqı fondunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 31 yanvar tarixli 29 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 173 (Cild I) 4-cü hissəsi ləğv edilsin.

**7.** "Ətraf mühitə təsirin qiymətləndirilməsi və strateji ekoloji qiymətləndirmə sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 oktyabr tarixli 425 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 10, maddə 1672 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli Qərarı) 2-ci hissəsi ləğv edilsin.

**8.** "Ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin ixtisas attestatının forması və attestatın verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya onun ləğv edilməsi, eləcə də ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin və ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 noyabr tarixli 457 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1877 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**9.** "Dövlət ekoloji ekspertizasını həyata keçirən Ekspert Komissiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 fevral tarixli 31 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 182 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**10.** "Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 may tarixli 184 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 655 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**11.** "Strateji ekoloji qiymətləndirmənin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 354 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1088 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**12.** "Ətraf mühitə təsirin, o cümlədən transsərhəd təsirin qiymətləndirilməsinin aparılması Qaydası və müddəti"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 sentyabr tarixli 362 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1096 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 191** **Bakı şəhəri, 2 aprel 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

"Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması Qaydası"nın və "Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunan qida zənciri obyektlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2442 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 440 (Cild I); 2024, № 1, maddə 85) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 19.2-ci bənddən "və ya təsdiq edildikdə" sözləri çıxarılsın və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Yarmarkalar, sərgilər və xeyriyyə tədbirləri çərçivəsində təşkil edilən satış obyektlərinin, ilkin istehsal sahəsində, pərakəndə satış bazarları daxilində və səyyar satışlar vasitəsilə qida məhsullarını satan ailə kəndli təsərrüfatlarının qeydiyyatı tələb olunmur.".

**2.** 19.5-ci bənddən "və ya təsdiq olunmasına" sözləri çıxarılsın.

**3.** 20-1.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"20-1.5. Yarmarkalarda qida məhsullarının satışını həyata keçirən obyektlərin qeydiyyatı tələb edilmir. Satışa çıxarılan qida məhsullarının istehsalçısı (emalçısı) isə ailə-kəndli təsərrüfatları istisna olmaqla, texniki normativ hüquqi aktların tələblərinə cavab verən qida subyektinin qeydiyyata alınmasına və qida obyektinin qeydiyyata alınmasına və ya təsdiq edilməsinə dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarışa malik olmalıdır və bu tələblərə cavab verməyən istehsalçının (emalçının) məhsulları yarmarkalarda satışa çıxarıla bilməz.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 192** **Bakı şəhəri, 2 aprel 2024-cü il**

**"Azərbaycan Respublikasının adından və ya Azərbaycan Respublikası Hökuməti adından alınan texniki yardım və ya qrant hesabına həyata keçirilən layihələrə dair dövri hesabat forması"nın və "Azərbaycan Respublikasının adından və ya Azərbaycan Respublikası Hökuməti adından alınan texniki yardım və ya qrant hesabına həyata keçirilən layihələrə dair yekun hesabat forması"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 avqust tarixli 366 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının adından və ya Azərbaycan Respublikası Hökuməti adından alınan texniki yardım və ya qrant hesabına həyata keçirilən layihələrə dair dövri hesabat forması"nın və "Azərbaycan Respublikasının adından və ya Azərbaycan Respublikası Hökuməti adından alınan texniki yardım və ya qrant hesabına həyata keçirilən layihələrə dair yekun hesabat forması"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 avqust tarixli 366 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1471 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3-cü hissə üzrə:

birinci abzasda "müəssisələrinə" sözü "hüquqi şəxslərə" sözləri ilə əvəz edilsin;

3.1-ci bənddə "kağız və elektron daşıyıcılarda" sözləri "mərkəzi icra hakimiyyəti orqanlarının və dövlətə məxsus hüquqi şəxslərin Azərbaycan Respublikasının adından və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin adından aldıqları qrantların reyestri (bundan sonra - Reyestr) vasitəsilə" sözləri ilə əvəz edilsin;

3.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.2. Azərbaycan Respublikasının adından və ya Azərbaycan Respublikası Hökuməti adından alınan texniki yardım və ya qrant hesabına həyata keçirilən layihələrə dair yekun hesabatı Reyestr vasitəsilə bu Qərarın 2-ci hissəsi ilə təsdiq edilmiş formaya uyğun olaraq layihə bitdikdən sonra 20 gün müddətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə göndərsinlər və sonrakı 30 gün müddətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla, elektron daşıyıcıda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.".

4-cü hissədə "müəssisələr" sözü "hüquqi şəxslər" sözləri ilə əvəz edilsin.

5-ci hissə aşağıdakı redaksiyada verilsin:

"5. Reyestrin aparılması qaydası təsdiq edilənədək bu Qərarın 3.1-ci və 3.2-ci bəndlərində qeyd edilmiş hesabatlar müvafiq qaydada kağız və elektron daşıyıcılarda təqdim edilsin.".

Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının adından və ya Azərbaycan Respublikası Hökuməti adından alınan texniki yardım və ya qrant hesabına həyata keçirilən layihələrə dair dövri hesabat forması" üzrə:

3-cü, 4-cü, 13-cü (birinci halda) və 14-cü hissələrdən "təşkilatı" sözü çıxarılsın;

6-cı, 7-ci, 13-cü və 14-cü hissələrdə "orqan" sözü "mərkəzi icra hakimiyyəti orqanı və dövlətə məxsus hüquqi şəxs" sözləri ilə əvəz edilsin;

13-cü hissədən "(bundan sonra - podratçı, məsləhətçi, qeyri-hökumət təşkilatı və s.)" sözləri çıxarılsın;

25-ci hissə ləğv edilsin;

28-ci və 29-cu hissələr aşağıdakı redaksiyada verilsin:

| | |
|---|---|
| 28. | Layihə çərçivəsində nəzərdə tutulan və yerinə yetirilən işlər arasında fərq və həmin fərqin aradan qaldırılması ilə bağlı görülən tədbirlər |
| 29. | Benefisiarın dövlət xəzinədarlığının icazəsi ilə istifadə etdiyi bank hesabı |

"Əlavə qeydlər" hissəsində "dövlət orqanında" sözləri "mərkəzi icra hakimiyyəti orqanı və dövlətə məxsus hüquqi şəxsdə" sözləri ilə əvəz edilsin.

5. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının adından və ya Azərbaycan Respublikası Hökuməti adından alınan texniki yardım və ya qrant hesabına həyata keçirilən layihələrə dair yekun hesabat forması" üzrə:

3-cü, 4-cü, 13-cü (birinci halda) və 14-cü hissələrdən "təşkilatı" sözü çıxarılsın;

6-cı, 7-ci, 13-cü və 14-cü hissələrdə "orqan" sözü "mərkəzi icra hakimiyyəti orqanı və dövlətə məxsus hüquqi şəxs" sözləri ilə əvəz edilsin;

13-cü hissədən "(bundan sonra - podratçı, məsləhətçi, qeyri-hökumət təşkilatı və s.)" sözləri çıxarılsın;

25-ci və 26-cı hissələr aşağıdakı redaksiyada verilsin:

| | |
|---|---|
| 25. | Layihə çərçivəsində nəzərdə tutulan və yerinə yetirilən işlər arasında fərq və həmin fərqin aradan qaldırılması ilə bağlı görülən tədbirlər |
| 26. | Benefisiarın dövlət xəzinədarlığının icazəsi ilə istifadə etdiyi bank hesabı |

"Əlavə qeydlər" hissəsində "dövlət orqanında" sözləri "mərkəzi icra hakimiyyəti orqanı və dövlətə məxsus hüquqi şəxsdə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 194** **Bakı şəhəri, 2 aprel 2024-cü il**

**"Müntəzəm sərnişin daşımalarının həyata keçirilməsi nəzərdə tutulan avtonəqliyyat vasitələrinin gediş haqqının elektron qaydada ödənilməsi üçün ödəniş alətləri ilə təchiz olunması halları"nın təsdiq edilməsi haqqında**

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2008-ci il 4 iyul tarixli 792 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 17 aprel tarixli 1926 nömrəli, "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2300 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Müntəzəm sərnişin daşımalarının həyata keçirilməsi nəzərdə tutulan avtonəqliyyat vasitələrinin gediş haqqının elektron qaydada ödənilməsi üçün ödəniş alətləri ilə təchiz olunması halları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Naxçıvan MR Ali Məclisinin plenar iclası



**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının növbəti plenar iclasında "Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında" Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsi dinlənilib, cari məsələlər nəzərdən keçirilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov məlumat verib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında irəli sürdüyü "Media haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklə bağlı qanun layihəsi Azərbaycan Respublikası Milli Məclisinin komitələrində müzakirə olunub və 29 mart 2024-cü il tarixində Milli Məclisin növbəti plenar iclasında birinci oxunuşda qəbul edilib. Bugünlərdə Ali Məclisin rəsmi internet saytı istifadəyə verilib.

Sonra Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva 2023-cü il üzrə fəaliyyətə dair məruzə edib. Məruzə ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli komitənin rəyini diqqətə çatdırıb. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) illik məruzəsinin nəzərə alınması ilə bağlı qərar səsə qoyularaq qəbul edilib.

Cari məsələlərin müzakirəsi zamanı deputatlar elm, təhsil müəssisələrinə, digər yerlərə verilən və daha sonra ləğv edilən şəhid adlarının bərpası, məhəlləd axili yolların təmiri, deputatın statusu ilə bağlı bir sıra məsələlər, görkəmli şəxsiyyət Əbülfət ağa Şahtaxtinskinin məzarının bərpası, içməli su təminatı, əhalinin məşğulluğunun təmin olunması, vətəndaşların məişət şəraitinin yaxşılaşdırılması, onların tibbi sosial yardımla təminatı, sahibsiz heyvanlarla bağlı və digər mövzularda çıxış ediblər.

**XQ**

# Azərbaycan və Rusiya prokurorluq orqanları səmərəli əməkdaşlıq edir



**Rusiya Federasiyası Baş prokurorunun müavini Pyotr Qorodovun rəhbərlik etdiyi nümayəndə heyəti Baş prokuror Kamran Əliyevin dəvəti ilə Bakıda keçirilən Xəzəryanı dövlətlərin baş prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşündə iştirak etmək üçün ölkəmizə işgüzar səfərə gəlib.**

İkitərəfli görüşdə Baş prokuror Kamran Əliyev ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin strateji xarakter daşıdığını, dövlət başçılarının birgə səyləri və siyasi iradələri sayəsində ikitərəfli münasibətlərin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini vurğulayıb.

Kamran Əliyev Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlətimizin başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə qonaqları məlumatlandırıb.

Pyotr Qorodov Bakıda keçirilmiş Xəzəryanı dövlətlərin baş prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşünün vacibliyini vurğulayaraq bu formatın qarşılıqlı səmərəli fəaliyyətin davam etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə edib.

***XQ***

# "IDEA"nın növbəti "abad həyət" töhfəsi

**"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində aprelin 5-də Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən və təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində növbəti abad həyət sakinlərin istifadəsinə verilib.**



Yenilənmiş həyət Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Sülh küçəsi, 4090/94-cü məhəllə, ev 3, ev 1/1, ev 2/7 ünvanlarında 820 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir.

Həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şərait yaradılıb, süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə 3 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 219 ədəd müxtəlif növ ağaclar, 5500 ədəd kol və 2000 ədəd mövsümi güllər əkilib, 2050 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında sıx bitən və hava çirklənməsini effektiv şəkildə azalda bilən 1200 ədəd adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə "yaşıl sədlər" (green barriers) yaradılıb.

2017-ci ildən etibarən icra olunan "Bizim Həyət" layihəsi çərçivəsində bu günədək 151 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.

"IDEA" İctimai Birliyi həyətlərin abadlaşdırılması və yenidənqurma işlərinin aparılması istiqamətində sakinlərin təklif və müraciətlərini İctimai Birliyə təqdim etməyə çağırır. Müraciətlərinizi "IDEA" İctimai Birliyinin qaynar xətti 1113 və ya e-mail ünvanına (info@ideacampaign.org) göndərməyiniz xahiş olunur.

**XQ**

# Ermənistan – türksüzləşdirilmiş Qərbi Azərbaycanın süqutu

**28 may 1918-ci ildə İrəvan xanlığının ərazilərində erməni dövləti elan olunandan sonra əhalinin demoqrafik quruluşunu ermənilərin xeyrinə dəyişdirmək üçün Ermənistan Respublikasının tədbirlərindən biri azərbaycanlıların öz yurdlarından çıxarılması və onların yerinə ermənilərin yerləşdirilməsi olub. İlk erməni dövlətinin belə bir plan işlədiyi məlumdur, bu dəlillər ayrı-ayrı araşdırmaçıların çalışmalarında yer almışdır. Bu səbəbdən Qərbi Azərbaycan ərazilərindən min illər boyu burada yaşayan türk- müsəlman əhalinin qovulub çıxarılması prosesinə 1918-ci ildən başlanıldığı qənaətinə gələ bilərik.**



Bu dövlətin ortaya çıxmasına bəzi erməni siyasi xadimləri müvəqqəti hal və türk-müsəlman əhalidən intiqam almaq vasitəsi kimi baxırdılar. Əslində, tarixi Azərbaycan torpaqlarında belə bir erməni dövlətinin ortaya çıxmasına o zamankı erməni siyasi təşkilatları "göydəndüşmə bir fürsət" hesab edirdilər, çünki erməni düşüncə sistemində bu ərazilərdə müstəqil bir erməni dövlətini qurmaq yer almamışdı. Erməni tarixçisi Tatul Hakopyan bunlardan bəhs edərək yazır ki, "ermənilər Şərqi Anadoluda bir erməni dövləti xəyal etmiş və bunun uğrunda siyasi və hərbi mübarizə aparmışdılar. Hesabda Cənubi Qafqaz yox idi".

O, 1919-cu ildən Ermənistanın daxili işlər və müdafiə naziri olmuş Ruben Ter-Minasyandan belə bir sitat gətirir: "1917-ci ilə qədər erməni siyasi baxışında indiki Ermənistan ərazisində Ermənistanın müstəqilliyini istəyən cərəyan yox idi. "Müstəqilliyə can atanlar çox idi, lakin bu, "Qərbi Ermənistan"ın müstəqilliyi idi". Tatul Hakopyan vurğulayır: "Onlar İrəvanı yox, Vanın paytaxt olmasını istəyirdilər. Cənubi Qafqazda dövlət elan etmək həmin dövləti qalıcı etmək anlamına gəlmirdi. İlk tədbir kimi burada demoqrafik dəyişikliklər etmək çətinliyi vardı". Çünki bu ərazilərdə yaşayanların böyük əksəriyyəti türklər idi.

Qısa bir zamanda demoqrafik üstünlüyə nail olmaq üçün Ermənistan Respublikası xarici ölkələrdə yaşayan ermənilərin bu ərazilərə gətirilib yerləşdirilməsi işinə başladı və 1918-ci ilin yaz-payız aylarında bu əraziyə artıq 500 mindən artıq erməni gətirilib yerləşdirildi. İstanbula 1918-ci ilin iyununda göndərilən erməni heyətinin üzvlərindən olan Aharonyan da qeyd edir ki, görüşlərimiz zamanı Osmanlı dövlətinin böyüklərindən keçmiş Osmanlı erməniləri olan və Ermənistanda yerləşdirməyi düşündüyümüz 500 min əhaliyə yardım etmələrini istədik. Bu fakt onu göstərir ki, 1918-ci ildə bu qədər sayda erməni kənardan gətirilib yerləşdirilmişdir. Burada bir haşiyəyə çıxıb söyləyə bilərik ki, əgər 1915-ci il 27 may Təhcir qanununa uyğun olaraq Osmanlı dövlətinin bir ərazisindən başqa bir ərazisinə köç etdirilən erməni əhalinin yarım milyonu Ermənistana gətirilmişdisə, bu fakt erməni dövlət xadimlərinin dilindən səsləndirildiyinə görə qondarma "erməni soyqırımı" tezisi və 1,5 milyon ermənin öldürülməsi iddiasının nə dərəcədə saxta olduğu ortaya çıxır. Demək öldürüldüyü iddia edilən əhalinin yarım milyonu Ermənistana köç etdirilmişdir.

Ermənistan Respublikasının daha sonrakı "tədbiri " isə dövlət səviyyəsində burada yaşayan azərbaycanlıların öz yurd-yuvalarından çıxarılması və ölkədən qovulması idi. Bunun isə daxili işlər və müdafiə naziri Ruben Ter-Minasyana həvalə olunduğu rəsmən açıqlanmışdır. Ermənicə qaynaqlarda bununla bağlı yetərincə məlumatlar vardır. Onlardan biri erməni araşdırmaçı Arşaluys Zurabyana aiddir və onun "tir. media.am" saytında gedən "1919-1920-ci illərdə Ruben Ter-Minasyan Ermənistanı düşmən elementlərindən təmizlədi" adlı yazısıdır. Bu yazıda bu "tədbirlə" bağlı faktlar yer alır. Etiraf olunur ki, "Ruben Ter-Minasyan Aram Manukyanla məsləhətləşərək 1918-ci ilin yayında onu bu işə inandırdı və digər fraksiya liderlərinin qüvvələri ilə birlikdə 1919-1920-ci illərdə Ermənistanı düşmən ünsürlərdən təmizləmək missiyasını həyata keçirdi".

Ruben Ter-Minasyanın bu vəhşi tədbirlərinə haqq qazandıran müəllif hansı istiqamətlərdə "düşmən ünsürləri" yox etməyə nail olduğunu da qeyd edir, bu sahədəki "xidmətlərini" də sıralayır:

"1. Ararat ( Ağrı) vadisi və ətraf rayonlarda türk-tatar üsyanlarının yatırılması, ölkənin sabitliyinin və daxili təhlükəsizliyinin təmin edilməsi (Ermənistanda yaşayan türklər öz hökumətlərini (şura) quraraq Ermənistanı içəridən partlamağa cəhd edirdilər).

2. Hərbi qalalara çevrilmiş yüzlərlə müsəlman yaşayış məntəqəsi dağıdılmış və yüz minlərlə erməni qaçqını tatarların tərk etdiyi kəndlərdə məskunlaşaraq ölüm, aclıq və mövsümi xəstəliklərdən xilas olmuşdu.

3. Vətənimizin şərqi yenidən silahlandırılır. Bu, milli müdafiə və Ermənistan dövlətinin qurulması üçün son dərəcə vacib idi".

Daşnak siyasi elitasının nümayəndələrindən biri Artaşes Hovsepyanın (Malxas) ifadəsinə görə, Ruben türklərin yaşadığı hər bölgəni Ermənistanın daxili düşmənlərindən (yəni azərbaycanlılardan-müəllif) təmizlədikdən sonra xəritəni götürüb, "işğaldan azad edilmiş" rayonu mavi rəngə boyamışdı və xəritənin tək rəngdə olacağı günü görmək arzusu ilə yaşayırdı".

Bu qaynaqdan da anlamaq mümkündür ki, Ermənistan elan olunduğu gündən etibarən Qərbi Azərbaycanın bütün bölgələrində azərbaycanlı əhaliyə qarşı ən sərt şəkildə davranmışdır. Bu siyasət SSRİ dönəmində də davam etdirilmiş, müxtəlif bəhanələr uydurularaq ölkədə demoqrafik dəyişikliyi ermənilərin xeyrinə dəyişdirmək fəaliyyətləri yürüdülmüşdür. Nəticədə bu ölkə monoetnik bir dövlətə çevrilmişdir.

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Media və Türk mədəni irsi




**Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova Azərbaycan Mətbuat Şurasında olub.**

Şuranın sədri Rəşad Məcid qonağa qurumun missiyası və fəaliyyəti barədə məlumat verib. Şuranın Türk dünyasında fəaliyyət göstərən media orqanları və jurnalist təşkilatları ilə əməkdaşlığından söz açan R.Məcid deyib ki, qarşılıqlı təmaslarda başlıca məqsəd həm də ortaq Türk mədəniyyəti və irsinin təbliğində jurnalist əməyini stimullaşdırmaq, qələm sahibləri arasında əlaqələrin dərinləşməsinə dəstək göstərməkdir.

A.Raimkulova Türk Mədəniyyəti və İrsi Fondunun hazırda həyata keçirdiyi işlər və gələcək planlarından danışıb. O, qurumun fəaliyyətinin intensivləşdirilməsi üçün media amilinin zəruriliyinə diqqət çəkib. A.Raimkulova bu baxımdan Mətbuat Şurası ilə əməkdaşlığın faydalı olacağına əminliyini vurğulayıb.

Görüşdə, həmçinin Türk Mədəniyyəti və İrsi Fondu ilə Mətbuat Şurasının təmsilçilərinin müntəzəm görüşlərinin, müxtəlif məsələlərə dair birgə müzakirələrinin təşkili qərara alınıb.

***XQ***

Tamaşalardan qanadlanan mahnılar

# Eşq də olacaq, aşiq də!..

**Yaxşı mahnının resepti birdir: onun sözlərini adi şeir kimi, musiqisiz söyləmək mümkün deyil, melodiyasının ilk akkordlarını eşidən kimi mətnin zümzüməsi adamın dilinə gəlir. Təbii ki, bu cür nəğmələr çox olmasa da, var. Biri də "Şeyx Sənan" dramından məşhurlaşan "Kor ərəbin mahnısı"dır.**

Üç dahi sənətkarın – şair-dramaturq Hüseyn Cavidin, bəstəkar Fikrət Əmirovun və tamaşanın quruluşçu rejissoru Adil İsgəndərovun dühasının, istedadının məhsulu olan "Şeyx Sənan" tamaşası həm ən müxtəlif məqamları ilə, həm də aktyor Məmmədəli Əliyevin canlı ifa etdiyi mahnı ilə yadda qalıb:

**Nə eşq olaydı, nə aşiq, nə nazlı afət olaydı!**
**Nə xəlq olaydı, nə xaliq, nə eşqi-həsrət olaydı!..**

Möhtəşəm mahnının tarixi ötən əsrin 50-ci illərindən başlayır. Özü də məhz 1956-cı ildə indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuş "Şeyx Sənan" üçün bəstələnib. Aktyor deyirdi ki, mən o mahnını oxuyub qurtaran kimi Bülbül səhnəyə çıxdı, əllərimi sıxıb dedi ki, sağ ol Məmmədəli, nə gözəl oxudun!

Cavid şeiriyyəti üçün fəlsəfi və ədəbi baxımdan adi sayılacaq bir şeir parçası əsərin ruhuna o qədər uyğun gəlir, Fikrət Əmirovun bəstələdiyi musiqi ilə bir-birini o qədər tamamlayır ki, Kor ərəbin dərd izharı "Şeyx Sənan" tamaşası qədər məşhurlaşır. Üstəlik, teatrın tamaşalarında daha çox kiçik, həm də canlı mahnı oxumaq gərəkən rolların tapşırıldığı Məmmədəli Əliyev də bu ifaya görə az qala ildırım sürəti ilə tanınıb.

Onu da xatırladaq ki, 1961-ci ildə milli televiziya rejissorluq məktəbinin görkəmli nümayəndəsi, yenilikçi Rauf Kazımovski Məmmədəli Əliyevin bu ifasını film estetikasında lentə alıb. Fikrət Əmirov da bu lenti özü ilə Amerika səfərinə aparıb. Nəinki respublika, o zamankı ittifaq, hətta dünya televiziya məkanında klip anlayışının hələ formalaşmadığı bir dövrdə Rauf Kazımovski Məmmədəli Əliyevi elə Kor ərəbin səhnə libasında İçərişəhərdə, Şirvanşahlar sarayının ərazisində çəkib. Bu, Azərbaycan televiziyası üçün bir ilk idi və güman etmək olardı ki, hələ o zamanlar dövrünün böyük müğənniləri – Rəşid Behbudov, Şövkət Ələkbərova və Gülağa Məmmədovun repertuarına daxil olmuş bu mahnı dillərdən düşməməliydi, klip isə ara-sıra mavi ekranda göstərilməliydi. Amma... Bizim bir çox mənəvi sərvətlərimizə bəslədiyimiz biganəlik bu əsərdən də, onun ifaçısından da yan ötməyib.



1978-ci ildə o illərin cavan tədqiqatçısı, əsas elmi yaradıcılığı ilə paralel olaraq, Azərbaycan musiqi tarixini öyrənib təbliğ edən, bugünümüzün görkəmli alimi, radionun məşhur "Axşam görüşləri" proqramının müəllifi və aparıcısı Rafael Hüseynov radionun arxivindən Məmmədəli Əliyevin ifasında "Kor ərəbin mahnısı"nın lent yazısını tapıb. Həmin lentin izi ilə artıq yaşlaşmış, teatrdan da çoxdan uzaqlaşmış Məmmədəli Əliyevi də tapıb, onun digər ifalarını da. Beləcə, "Kor ərəbin mahnısı" yenidən yada düşüb. Bu gün həmin mahnı digər xanəndələrin – Alim Qasımov, Mələkxanım Əyyubova və Mənsum İbrahimovun, eləcə də gənc nəsil xanəndələrin repertuarındadır.

Hazırda "Şeyx Sənan" tamaşası Milli Dram Teatrının oynanılmasa da, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının repertuarındadır. Tamaşanın quruluşçu rejissoru Cənnət Səlimova, bəstəkarı isə Firudin Allahverdidir. Amma bu tamaşada Kor ərəbin mahnısı yoxdur. Mizanı yetişən Kor ərəb eləcə bələdçisi ilə səhnəyə gəlir və sözünü, yəni şeirini deyib səhnədən çıxır. Həmin şeirə yeni bir musiqinin yazılmasının quruluşçu rejissorun istəyi, yaxud bəstəkarın qərarı olduğunu deyə bilmərik. Hər halda, məntiq anlaşılandır: ilk mahnının melodiyası və ifaçının səsi artıq neçə nəsil Azərbaycan musiqisevərinin qulaq yaddaşına həkk olunub. Amma ənənə deyilən bir nəsnə də var, axı. Yeni bəstə ilk mahnının müəllifi Fikrət Əmirovun əsəri ilə müqayisədə mütləq uduzar... Hətta güclü və təsirli olsa belə...

Bu məqamda yenə də yaxşı mahnının düsturu yada düşür: Gənc Tamaşaçılar Teatrının səhnəsində bu səhnə əsərinə baxanda Kor ərəbin mahnısını eşitməsək belə, Məmmədəli Əliyevin yumşaq və qəlb titrədən səsi, Firkət Əmirovun hüznlü melodiyası qulağımıza gəlir...

**Gülcahan MİRMƏMMƏD**

Zəfərin Güney əks-sədası

**Bu dəyərli kitabı əldə etiyimə görə mərhum deputat həmkarımız, Turan təəssübkeşi Qənirə Paşayevanın ruhuna dualar oxuyuram. Belə ki, ötən ilin fevralında – mənim 70 yaşım tamam olanda o, bizi – bir neçə yubilyar qələm sahibini öz iş otağına çağıraraq təbrik etmiş, haqqımızda müsbət fikirlər səsləndirmiş və hədiyyələr vermişdi. Həmin tədbirdə yubilyar kimi iştirak edənlərdən biri də AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Güney Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi, filologiya elmləri doktoru, dosent Esmira Fuad mənə bu kitabını bağışlamışdı.**

Redaksiyada həmin kitabı görən alim dostlarımızdan biri xahiş etdi ki, icazə ver, bu kitabı evə aparım, uzağı 10 günə qaytarıb gətirəcəm. İnandım, apardı və bir il bir aydan sonra gətirdi.




Əlqərəz, bu dəyərli kitabda Cənubi Azərbaycanda yaşayan şairlərimizdən 27 nəfər haqqında qısa bioqrafik məlumatlar və onların Vətən müharibəsinə həsr olunmuş şeirləri toplanıb. Əslində, bu çap məhsulu haqqında söz açarkən "dəyərli kitab" ifadəsi o qədər də kifayət eləmir. Elə ona görə də kitabdakı bəzi şeirlərə diqqət yönəltmək məqsədəuyğundur.

Məsələn, Kərim Mamağanlının bir bəndlik "Dünənki körpələr" şeirinə baxaq:

# Qaşqay elinin könlü Qarabağdadır

## Azərbaycan – 2 bədəndə 1 can

**Dünən qucaqlarda gedən körpələr**
**Bu gün tank üstündə dönür yurduna.**
**İşğalçı daşnaklar, qorxaq köpəklər**
**Yenik düşmədədir Qafqaz qurduna.**

2020-ci il oktyabrın 14-də, müharibənin başlanmasından 17 gün sonra yazılmış bu şeiri ona görə önə çəkdim ki, orada Ali Baş Komandanımızın dəfələrlə təkrar etdiyi bir ifadənin təsdiqini görürük. Cənab İlham Əliyev qələbədən sonra deyirdi ki, Qarabağı düşmən işğalından azad etmiş əsgər və zabitlərimizin əksəriyyəti ya o yerləri görməyib, ya da oradan didərgin düşəndə körpə uşaq olublar.

Yaxud, Ərsalan Mirzayinin "Qarabağ" şeirindən bir bəndə nəzər salaq:

**Bu bağ bizə bağlıdır,**
**Dörd bir yanı dağlıdır.**
**Özüm Qaşqay elindən,**
**Könlüm qarabağlıdır.**

İndi isə Fəridə Süleyman Aytəkinin 2020-ci il dekabrın 27-də yazdığı "Zəfər qazandıq" adlı şeirindəki bir bəndə diqqət yönəldək:

**Vətənin Ordusu Zəfər qazandı,**
**Düşməni qovdular, it qovan kimi.**
**İllərcə torpağım qərib qalmışdı,**
**Göstərə bilmirdim ona sevgimi.**

Qoşaçay şəhərində doğulub Urmiyada böyümüş bu xanımın üstün cəhətlərindən biri də odur ki, o, kiril əlifbasında olan bir çox kitabın Güney Azərbaycandakı soydaşlarımızın oxuya bildiyi əlifbaya çevrilməsini təmin etmişdir. Elə şeirində istifadə etdiyi "it qovan kimi" ifadəsi də onun Azərbaycan Prezidentinin nitq, çıxış və müsahibələrini oxumasından xəbər verir.

İndi isə təbrizli bacımız Hayde Buluki Özləmin "Qarabağım" şeirindəki "öfkə" məsələsinə diqqət yönəldək:

**Çıxdın zülüm qəfəsindən,**
**Kar oldu dünya səsindən.**
**Təngə gələn nəfəsindən**
**Öfkə yağır, Qarabağım.**

Fikrimizcə, ana dilimizdəki hirs, qəzəb, hiddət mənası verən öfkə ifadəsinin bu məqamda işlədilməsi də təsadüfi deyildi. Çünki cənab Prezident ermənilərə də, onların havadarlarına da dəfələrlə xatırlatmışdı ki, bizim də səbrimizin tükəndiyi vaxt olacaq, Azərbaycanın səbri ilə oynamayın.

Həmid Əhmədzadə Telimxan, Əli Daşqın, Cabir Lütfi, Nadir Paşa, Kövrək Hüseyn, Əbutalib Allahyari Tutqun, Hüseyn Siyami, Bəhram Əsədi, Rəsul Qədiri və digər soydaşlarımızın şeirlərində də Azərbaycan dövlətinin və xalqımızın mövqeyi qətiyyətlə, israrla və təbii ki, həm də ədəbi dillə müdafiə edilir.

Nəhayət, Esmira Fuad kimi tanıdığımız Esmira Şükürova ad-soyadlı alim-jurnalist haqqında. Filologiya elmləri doktoru, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü olan bu xanım Qubanın Yuxarı Susay kəndində Seyfəl Məmmədovun ailəsində dünyaya gəlmişdir. Bakı Dövlət Universiteti nəşriyyatında redaktor, Ali Diplomatiya Kollecində elmi metodist, "Azərbaycan diplomatiyası" jurnalında baş redaktorun I müavini, "Respublika" qəzetində uzun illər humanitar şöbənin müdiri vəzifələrinə işləyən Esmira Fuad 1999-cu ildən AMEA Nizami adına Ədəbiyyat İnstitutunda çalışır.

Amerika Bioqrafiya İnstitutu tərəfindən Cənubi Azərbaycan Ədəbiyyatı üzrə ekspert elan edilən bu həmkarımız 2016-cı ildə AMEA Nizami adına Ədəbiyyat İnstitutu üzrə ilin alimi seçilib. Oğlu Fuad avtomobil qəzasında həlak olduqdan sonra bütün yazılarını Esmira Fuad imzası ilə təqdim edir.

**İttifaq MİRZƏBƏYLİ**

Bir şəklin tarixçəsi

# Göygöldə əbədiləşən an

**Qələm dostum, tanınmış şair Zabil Pərviz Neftçalada doğulub boya-başa çatsa da, özünün təbii poeziya qanadları ilə bütöv Azərbaycan göylərində inamla pərvaz edir. Elə mənə göndərdiyi nadir fotoşəkli də 42 il əvvəl dünyaşöhrətli müğənni, SSRİ Xalq artisti Müslüm Maqomayevlə mavigözlü Göygöldə çəkdirib və tutiya kimi qoruyub saxlayır.**

Göygöl dəniz səviyyəsindən 1556 metr yüksəkliyində yerləşir. Orada lirik bariton səsli məşhurla görüşün bir anını əbədiləşdirəndə Zabil Pərvizin fərəhindən daha da yüksəklərə ucaldığına əminəm. Bu barədə şairin özünün düşüncələrini oxuculara təqdim edirik.

– 1982-ci ilin yayında Göygöldə ailəvi istirahətdə idim. Məndən ötrü xoşbəxt bir təsadüf oldu ki, böyük sənətkar Müslüm Maqomayevlə həyat yoldaşı Tamara Sinyavskayanı orada gördüm. O vaxt Gəncədə yazıçı İsa Hüseynovla rejissor Eldar Quliyevin birgə ssenari müəllifi olduqları tammetrajlı "Nizami" tarixi-bioqrafik film-pritçasının çəkilişləri gedirdi və Müslüm də baş rolun ifaçısı idi. Müslümgil Eldar Quliyevin ailəsi birlikdə çəkilişlərarası Göygölə dincəlməyə gəlmişdilər.

Göygölün pik nöqtəsində idik. Hamı gözəllikdən vəcdə gəlmişdi. Mən ürəklənib, özümdən 10 yaş böyük olan Müslümdən soruşdum:

– Bilirsənmi, bu zirvədə kimlər dayanıb?

– Yəqin, çox adam, –deyə qısa cavab verdi.

– Qoy, sayım, – dedim və sadalamağa başladım. – Lap əvvəl haqqında çəkilən filmdə baş rolu oynadığın dahi Nizami və Məhsəti, sonralar Mikayıl Müşfiq, Əhməd Cavad, Məmməd Araz və Xəlil Rza Göy gölü buradan seyr edib və gözəl şeirlər yazıblar.

Müslüm razılıqla başını tərpədib məndən soruşdu:

– Bəs sən yazmamısan?

Bəxtimdən,"Yazıçı" nəşriyyatının yenicə çap etdiyi "Çinar pöhrələri" almanaxı qoltuğumda idi. Kitabı açdım və oradakı "Göy göl" adlı şeirimi Müslümə göstərdim. Sonra isə adlarını çəkdiyim şairlərin Göygölə həsr etdikləri şeirlərdən parçalar səsləndirdim. Müslüm maraqla dedi:

– Oxu, görək, sən nə yazmısan?

Öz şeirimi də oxudum. Müslüm heyrətləndi və bir söz dedi:

– Heç də əvvəlki şairlərdən pis yazmamısan.

Ona "Çox sağ ol" deyib xahiş etdim ki, fotoqraf şəklimizi çəksin. Sonra da fürsətdən yararlanaraq təklif etdim ki, gəl, düşək aşağı, əlimizi Göy gölə vuraq, bir qurtum da su içək.

Tamara xanım qəti etiraz etdi ki, yıxılarsınız. Müslüm "Biz poeziyanın qanadlarında enirik, bizə heç nə olmaz", – dedi. Gülüşdük və aşağı düşüb Göygölün saf sularına əlimizi vurduq, ovuclayıb içdik. Bu, mənim üçün tarixi anlar idi.

**P.S:** Şair Zabil Pərviz Göygöldə unudulmaz sənətkar Müslüm Maqomayevə – böyük Nizami Gəncəvinin prototipinə oxuduğu şeiri də redaksiyamıza göndərib. Həmin şeiri ixtisarla da dərc edirik:



**"Göygöl" adlı nəğmələr çox...**
**Ancaq bütün nəğmələrdən**
**ilahidir, əzəldir o.**
**Nizaminin Azərbaycan divanından**
**dövrümüzə gəlib çatan**
**ən qiymətli qəzəldir o.**
**Yeri-yurdu zirvələrdə –**
**bulud deyil.**
**Dağın-daşın içindədir –**
**yaqut deyil.**
**Gözəlliyin rübabında**
**əfsanəvi bir simdir o,**
**Görən dönür pərvanəyə –**
**yaşıl donlu tilsimdir o.**
**Başı üstə keşik çəkən Kəpəzə bax:**
**Bir əbədi yuxusuzluq timsalı tək**
**daim oyaq...**

***Əli NƏCƏFXANLI***
***XQ***

# "Ulduz"un ədəbi şəfəqləri



**Azərbaycan Yazıçılar Birliyində (AYB) "Ulduz" jurnalının "Yeni nəsil: proza", "Yeni nəsil: poeziya" və "Yeni nəsil: tənqid" buraxılışlarının təqdimat mərasimi keçirilib.**

Jurnalın baş redaktoru Əməkdar jurnalist Qulu Ağsəs Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası ilə birgə reallaşdırılan layihəyə əmək sərf etmiş gənc redaktorları təqdim edərək deyib ki, onların ciddi səyi ilə 35 yaşına qədər istedadlı gənclərin yaradıcılığı jurnalın xüsusi nömrələrində bir araya gətirilib.




AYB-nin sədri Xalq yazıçısı Anar gənc ədəbi redaktorlara belə münbit şərait yaradılmasını yüksək dəyərləndirib, buraxılışların önəmini açıqlayıb və hər üç nömrədə sanballı yazıların yer aldığını söyləyib. AYB-nin sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid deyib ki, ədəbi-bədii orqanların müxtəlif nömrələrinin hazırlanmasının gənc redaktorlara həvalə edilməsi təcrübəsi əvvəllər də olub və bu, özünü doğruldan yanaşmadır.

"Yeni nəsil: proza" buraxılışının redaktoru Furqan 35 yaşa qədər nasirlərin təxminən 20 hekayəsinin jurnalda işıq üzü gördüyünü bildirib və həmin bədii nümunələlərin zaman keçdikcə öz aktuallığını itirməyəcəyinə inam ifadə edib. "Yeni nəsil: tənqid" buraxılışının redaktoru, fəlsəfə doktoru Elnarə Qaragözova xüsusi nömrə üçün yazıların seçimində maksimum obyektivliklə ən dəyərli təhlillərə üstünlük verildiyini qeyd edib. Nəticədə ədəbi ictimaiyyətə dərin elmi məzmunlu yazılar təqdim olunub. "Yeni nəsil: poeziya" buraxılışını ərsəyə gətirmiş gənc redaktor Ramil Əhməd isə buraxılışlarda nəsr, nəzm və tənqidi materialların ayrı-ayrılıqda yer aldığına diqqəti cəlb edib. O, poeziya buraxılışının "Ulduz"un 650-ci sayına təsadüf etdiyini vurğulayıb. Yazı müəlliflərindən olan fəlsəfə doktoru Nərgiz İsmayılova gənclərə diqqətə görə minnətdarlığını bildirib.

Hər üç buraxılışın ümumi icmalını verən AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Vaqif Yusifli layihə barədə özəl qeydlərini diqqətə çatdırıb. Dünya Gənc Türk Yazarlar Birliyi İdarə Heyətinin sədri İntiqam Yaşar bu qurumun 25 illiyi ilə əlaqədar belə bir buraxılışın hazırlanması ilə bağlı təklif irəli sürüb.

Sonda Qulu Ağsəs təqdim olunan buraxılışların bir almanax şəklində nəşrə hazırlanacağını bildirib.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Cavidin "Ana"sı Şuşa Teatrı səhnəsində

**Şuşa Dövlət Musiqili Dram Teatrı sabah Hüseyn Cavidin "Ana" mənzum dramı əsasında hazırlanmış eyniadlı tamaşa ilə yenidən teatrsevərlərin qarşısına çıxacaq.**

Teatrdan bildirilib ki, səhnə əsərinin quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimovdur.

Bütün yaradıcılığı boyu xeyirlə şərin mübarizəsini təsvir edən Hüseyn Cavid "Ana" dramında Səlma ananın timsalında ümumbəşəri dəyərlərə malik qadın obrazı yaradıb. Ana evinə qəbul etdiyi qonağın oğlunun qatili olduğunu bilincə, nə qədər sarsılsa da, "Qonaq Allah qonağıdır", "Qonağa zaval yoxdur" düşüncəsi ilə dözümlülük və mətanət göstərir. Əsər faciəvi bir sonluqla bitsə də, Səlma ananın möhtəşəm obrazı xarakter baxımından yaddaşlarda dərin iz buraxır.



***XQ***

Beynəlxalq həyat

# “Rusiya Ermənistanı xarici müdaxilələrdən necə xilas etdi?”

(əvvəli 1-ci səhifədə)

“Birinci Qarabağ müharibəsi (1992-1994) zamanı Ermənistan üç dəfə Türkiyənin real müdaxiləsi təhlükəsi altında olub. Rusiya hər dəfə hadisələrin belə inkişafının qarşısını dinc yolla ala bilib.

Rusiyanın Ermənistandakı ilk səfiri Vladimir Stupişinin xatirələrinə görə, “Artsax” (qondarma “DQR”-in keçmiş erməni adı İ.R.) uğrunda döyüşün qızğın vaxtında “Burbulis və Qraçov (Rusiyanın keçmiş müdafiə naziri –İ.R.) Ermənistan prezidenti ilə İrəvana uçdu və hava limanında keçirdiyi mətbuat konfransında Türkiyə tərəfinə xəbərdarlıq edərək bildirdi ki, “oraya (Qarabağ münaqişəsinə İ.R.) başqa bir tərəf qoşularsa, onda biz Üçüncü Dünya müharibəsinin astanasında ola bilərik”.

Öz növbəsində, Rusiya Federasiyasının Türkiyədəki səfiri Albert Çernışev Türkiyənin münaqişəyə müdaxiləsinə Moskvanın mümkün reaksiyası ilə bağlı xəbərdarlıq edir ki, “1921-ci il Qars müqaviləsi nə Türkiyəyə, nə də Rusiyaya hərbi müdaxilə hüququ verir”. Bu bəyanatlar Türkiyənin hərbi-siyasi



dairələrinin Ermənistan və Qarabağ problemi ilə bağlı sonrakı davranışlarına ciddi təsir göstərdi. Bundan sonra Türkiyə hücuma keçmək əvəzinə Ermənistana iqtisadi təzyiq yolunu tutmağa qərar verdi, sərhədi rəsmən bağladı, həmçinin Bakının döyüş sursatı ilə təmin edilməsi və azərbaycanlı mütəxəssislərin yenidən hazırlanması haqqında müqavilə imzaladı və ATƏT-in 1993-cü ilin fevralında qəbul edilən Dağlıq Qarabağ münaqişəsi bölgəsinə döyüş sursatı idxalını qadağan edən qərarını pozdu. (Rusiyalı diplomatın bu fikri adamda doğrudan da istehza və sarkazm doğurur. Elə ATƏT o zaman qəbul etdiyi qərar da bunun kimi. Demək Rusiya Ermənistanda qoşun yerləşdirib erməniləri silahlandıra bilər, amma Türkiyə Azərbaycana silah-sursat verə bilməz.– İ.R. )

İsveç Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunun CA&C Press AB saytına görə, “1993-cü ilin yazında Azərbaycanın xeyrinə heç bir müsbət dəyişiklik baş vermədiyindən, Türkiyədə bəzi dairələr birbaşa hərbi müdaxilə ideyasını fəal şəkildə dəstəkləməyə başladılar. 1993-cü ilin aprelində Rifah Partiyasının spikeri və Ana Vətən Partiyasının deputatı Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsinə hərbi müdaxiləsinin zəruriliyini bəyan etdilər. Cümhuriyyət Xalq Partiyasının sədr müavini İstemihan Talay Türkiyə hökumətini Azərbaycan Respublikasına kifayət qədər hərbi yardım göstərməməkdə ittiham etdi”.

Türkiyə Xarici İşlər Nazirliyi BMT Təhlükəsizlik Şurasına üzv ölkələrin – ABŞ, Rusiya, Böyük Britaniya, Fransa, Çin səfirlərinə Dağlıq Qarabağda hadisələrin inkişafının, Ankaranın nöqteyi-nəzərindən 1974-cü ildə Kiprdəki vəziyyəti xatırlatması barədə xəbərdarlıq edərək bildirdi ki, Türkiyə “qardaş Azərbaycan xalqını qorumaq üçün” yenidən oxşar addımlara əl ata bilər.

Eyni zamanda, Ermənistana hərbi müdaxiləyə yeni hazırlıq üçün konkret tədbirlər görülür. “Türkiyə Silahlı Qüvvələrinin 3-cü Səhra Ordusu tam döyüşə hazır vəziyyətə gətirilir, Türkiyə Hərbi Hava Qüvvələrinin bazalarında “Fantom” aviasiyasının hücum eskadrilyaları sutka boyu hərbi növbəyə başlayırlar”. Parlamentdə də ehtiraslar coşmağa başlayır: 1974-cü ildə Türkiyənin Kiprə hərbi müdaxiləsi zamanı baş nazir olmuş deputat Bülənt Ecevit Naxçıvan, Zəngəzur və Qarabağ vasitəsilə Türkiyəni Azərbaycanla birləşdirmək üçün Ermənistanın cənub rayonlarının ilhaqını təklif edir. Eyni zamanda, Türkiyə tərəfdən Ermənistan ərazisinin atəşə tutulması kəskin surətdə güclənir. Vəziyyət saatbasaat pisləşirdi.

1993-cü il may ayının əvvəlində Rusiyanın müdafiə naziri Qraçov prezident Boris Yeltsinin tapşırığı ilə gözlənilmədən Ankaraya bir günlük səfərə yola düşür. Rusiyanın hərbi naziri vəziyyətlə bağlı Kremlin mövqeyini kəskin və lakonik şəkildə bildirir və türk tərəfinin mülahizələrinə qulaq asmadan dərhal təyyarəyə qayıdır. Rusiya mətbuatı yazır ki, Qraçov Ankaraya səfəri zamanı “Türkiyə yüksək hərbi komandanlığının nümayəndələri ilə Zaqafqaziyadakı münaqişələrin həlli məsələlərini müzakirə edib”.

Moskvanın xəbərdarlığından sonra Türkiyə rəhbərliyi Rusiya ilə qarşıdurmaya girmək riskinə düşməyərək ikinci dəfə müdaxilə ideyasından əl çəkir. Lakin buna baxmayaraq, Türkiyə diplomatik demarşa və iqtisadi sanksiyalara əl atır.

Dörd ay sonra, 1993-cü ilin sentyabrında Türkiyə rəhbərliyi Rusiyadakı parlament böhranı “pərdəsi altında” erməni məsələsini güc yolu ilə həll etmək şansının olduğu illüziyasına qapılır.

Ermənistan-Türkiyə sərhədində Türkiyə Silahlı Qüvvələrinin 9-cu Sarıkamış diviziyasının 220-ci mexanikləşdirilmiş və 9-cu artilleriya dəstələri atəş məsafəsində Ermənistanla sərhədə yaxınlaşır. Türkiyənin yeni baş naziri Tansu Çillər açıq şəkildə ermənilərin Dağlıq Qarabağa hücumu dayanmasa, bura qoşun göndərəcəyi ilə hədələyir.

Yunanıstanın Ermənistandakı o vaxtkı səfiri Leonidas Xrizantopulosun xatirələrinə (“Qafqaz xronikaları. Ermənistanda dövlət quruculuğu və diplomatiya”) görə, 1993-cü il sentyabrın sonunda Türkiyə rəhbərliyi Rusiya parlamentinin sədri Ruslan Xasbulatova müraciət edib, onu dəstəkləməkləri müqabilində türk qoşunlarının Ermənistana yaxınlaşan işğalına mane olmamaq barədə razılığa gəlirlər. Həmin vaxtda da Xasbulatovun Boris Yeltsinlə qarşıdurması özünün zirvəsində idi. L.Xrizantopulos Türkiyənin mümkün işğalı ilə bağlı məlumatı Fransa və ABŞ səfirləri France D'Artinqə və Harri Gilmordan alır: “Rusiya parlamentinin sədri Xasbulatov Türkiyənin baş naziri Tansu Çillər ilə gizli razılaşma əldə edirlər... Xasbulatov qalib gəlsəydi, rus sərhədçiləri Zaqafqaziyadan geri çəkiləcəkdilər... Bu, Türkiyəyə kürd problemini bəhanə edərək Ermənistana məhdud şəkildə müdaxiləni həyata keçirməyə imkan verəcəkdi”. Lakin Yeltsin əleyhinə üsyan yatırılan kimi türk qoşunları Ermənistan sərhədindən dərhal geri çəkildilər.

Beləliklə, Birinci Qarabağ müharibəsi boyu Rusiya Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsinə açıq müdaxiləsinin qəti əleyhdarı kimi çıxış etdi. Ermənistanın 1992-ci il mayın 15-də Kollektiv Təhlükəsizlik Müqaviləsinə qoşulması və Rusiyanın 102-ci ordusunun Gümrüdə yerləşdirilməsi bundan sonra Baş Qərargahın və Türkiyə rəhbərliyinin hadisələrə müdaxilə ehtirasını soyutdu.

Rusiya qoşunlarının Ermənistan ərazisində statusunu hüquqi cəhətdən rəsmiləşdirmək barədə razılığa gəlirlər”. Rusiyanın Ermənistandakı birinci elçisi sonra deyir: “Ermənistanda bizim hərbi mövcudluğumuz (SSRİ-nin dağılmasından sonra - müəllifin qeydi) onun hökumətinin və əminəm ki, bunu görmüş və indi də görən xalqın açıq şəkildə ifadə edilmiş iradəsinə uyğun olaraq qorunub saxlanıldı. Bu mövcudluq nə qədər simvolik olsa da, onların təhlükəsizliyinin ən mühüm təminatlarından biridir. Bəli, Gümrüdəki (keçmiş Leninakan) döyüşə hazır motoatıcı diviziya da o qədər simvolik deyildi”.

Bununla eyni vaxtda, “1992-ci ilin mayında Türkiyə parlamentində müzakirələr başlandı: gündəmdəki məsələ azərbaycanlı qardaşları erməni təcavüzkarlarından qorumaq üçün Naxçıvana qoşun göndərib-göndərməmək idi, çünki Türkiyənin 1921-ci il Qars müqaviləsinə əsasən belə bir hüququ var”. Bu müzakirələrdə həm Türkiyənin baş naziri Süleyman Dəmirəl, həm də prezident Turqut Özal iştirak edirdi.

Bu vaxta qədər Türkiyə Silahlı Qüvvələrinin 3-cü Səhra Ordusu artıq Ermənistan-Türkiyə sərhədində yerləşdirilmişdi, “onun sərəncamında 1500-dən çox tank, 2500-ə yaxın top və minaatan, 1100-dən çox zirehli transportyor var idi. Ermənilərə qarşı ikinci cəbhənin açılması perspektivi real konturlar alırdı. Taktiki hərbi hava qüvvələri komandanlığı da 270-ə qədər döyüş təyyarəsi ilə quru qoşunları qrupuna dəstək verirdi”. Türkiyə Quru Qoşunlarının Baş Komandanı Muhittin Fisunoğlu o zaman bildirdi ki, “bütün lazımi hazırlıqlar görülüb və ordu çıxarılma əmrini gözləyir”.

Rusiyada Türkiyə təhlükəsini çox ciddi qəbul etdilər: Rusiya Federasiyasının Dövlət Dumasında Türkiyə Ordusunun Ermənistan sərhədləri yaxınlığında kəskin fəallaşması ilə bağlı xüsusi dinləmələr keçirildi. Dinləmələrdə xarici işlər naziri Andrey Kozırev və MDB Birləşmiş Silahlı Qüvvələrinin baş komandanı, aviasiya marşalı Yevgeni Şapoşnikov iştirak ediblər. 1992-ci il mayın 20-də yaranmış vəziyyətə əsaslanaraq, baş komandan təcili olaraq

***Tərcümə etdi:***
***İlqar RÜSTƏMOV***
***XQ***

## İDMAN GÜNDƏLİYİ



### 3 at ilə 2 qızıl medal

**Azərbaycan idmançısı Aydın Əlibəyov Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən atçılıq yarışlarında uğurla çıxış edib.**

İdmançımız atçılığın dresaj növü üzrə cavan və böyük əsas atlar (“Qızıl Tur”) arasında keçirilən “Maksima masters” çempionatında cavan atların yarışında 2 qızıl medala sahib olub. O, turnirdə 3 atla iştirak edir.

Yarış aprelin 7-dək davam edəcək.

### 3x3 basketbolçularımız Taylandda 2-ci olub




**Taylandın Muanq Patum Tani şəhərində 3x3 basketbol üzrə beynəlxalq turnirin həlledici mərhələsi baş tutub.**

“Paris 2024” Olimpiadasının təsnifat oyunlarına hazırlıq məqsədi daşıyan beynəlxalq turnirdə, 3x3 qadın millimiz “B” qrupundan çıxaraq, turnirin 1/4 final mərhələsinə yüksəlib. Millimiz bu mərhələdə “Sriracha Eagle”(Tayland) klubuna 21-11 hesabı ilə qalib gəlib və adını yarımfinala yazdırıb. Yığma üzvləri yarımfinalda isə, Polşanın “Lotto” klubu üzərində 17-16 hesablı qələbəyə seviniblər. Finalda güclü “Zoos” (Almaniya) klubuna qarşı gərgin oyunun yekununda 17-15 hesabı ilə məğlub olan 3x3 qadın millimiz beynəlxalq turniri ikinci sırada tamamlayıb.

### “Formula 1”: könüllülər toplaşırlar

**Bakı Şəhər Halqası (BŞH) Əməliyyat Şirkəti “Formula 1” üzrə Azərbaycan Qran-Prisində könüllülərin qeydiyyat mərhələsinə start verib.**

BŞH-dən “XQ”-yə bildiriblər ki, Bakının 8-ci dəfə evsahibliyi edəcəyi yarışın təşkili zamanı 1500 könüllünün cəlb olunması planlaşdırılır. Seçim mərhələsini uğurla başa vurmuş könüllülər müxtəlif sahələrdə, o cümlədən insan resursları, işçi qüvvəsi, media ilə iş, tribunalar, trek, ofis və hava limanı əməliyyatları, həmçinin digər istiqamətlərdə fəaliyyət göstərəcəklər.

Əvvəlki illərin təcrübəsi nəzərə alınaraq, müraciətlərin sayı çox olduğu üçün seçim zamanı xarici dil biliyi (ingilis dili) olan və daha öncə könüllü kimi fəaliyyət göstərmiş namizədlərə üstünlük veriləcək. Könüllülük proqramına 16 yaşdan yuxarı şəxslər müraciət edə bilər.

Qeyd edək ki, Azərbaycan Qran-Prisi sentyabrın 13-15-də təşkil olunacaq.

**Leyla SABİRQIZI**
**XQ**



## Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının Məlumatı

Ədliyyə Akademiyası aşağıdakı vəzifələri tutmaq üçün

MÜSABİQƏ ELAN EDİR

| № | Kafedraların adları | Vəzifələrin adları (ştat vahidi ilə) |
|---|---|---|
| 1. | Ədliyyə sahəsində idarəetmə kafedrası | baş müəllim – 1 ştat |
| 2. | Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası kafedrası | baş müəllim – 1 ştat |

**Qeyd:** müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində qəbul edilir. Təqdim olunması nəzərdə tutulan sənədlərin siyahısı barədə aşağıda qeyd edilmiş əlaqə vasitəsilə məlumat almaq mümkündür. Müsabiqədə iştirak etmək istəyənlər həmin sənədləri mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etməlidirlər:

Telefon– (994 12) 498 09 83.

Ünvan– AZ1000, Bakı şəhəri, Vidadi küçəsi 158.

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti

Elektrik malları və aksesuarların satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 23 aprel 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3704).

Ünvan– AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

“Bakı Toxuculuq Qalantereya” ASC səhmdarlarının nəzərinə!

“Bakı Toxuculuq Qalantereya” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 22 may 2024-cü il saat 10.00-da cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Mənfəət və zərərlərin bölüşdürülməsi.
3. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələ ilə bağlı sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək cəmiyyətə gəlməklə tanış ola bilərlər.

Əlaqə telefonu– 012-425-01-91.

Ünvan - Bakı şəhəri, Sabunçu rayonu, Anaşkin küçəsi 39.

***Müşahidə şurası***

“Saxsı Qablar” ASC səhmdarlarının nəzərinə!

“Saxsı Qablar” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 21 may 2024-cü il saat 10.00-da cəmiyyətin yerləşdiyi inzibati binada keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Mənfəət və zərərlərin bölüşdürülməsi.
3. Digər məsələlər.

Telefon - 070-306-66-98.

Ünvan - Bakı şəhəri, H.Əliyev prospekti 102.

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti

Müvafiq struktur bölmənin əməkdaşları üçün işçi geyimlərin satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 23 aprel 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3705).

Ünvan– AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 71 (30475) 6 aprel 2024-cü il, şənbə

# Dost başa baxar...

## Papaq isə sahibinin kimliyindən xəbər verir

**Bakının Balaxanı qəsəbəsində təcrübəli papaqçı Saleh İbrahimov nə az, nə çox, düz 60 il əvvəl əlinə qayçı, iynə-sap götürüb. Ona bu işdə ilk xeyir-duanı böyük qardaşı Əsgər verib. Elə sənəti də ondan öyrənib.**



"Rəhmətlik qardaşım çox gözəl sənətkar idi, hər cür müştərini razı salmağı bacarırdı. Ondan bir dəfə də narazı gedən müştəri görməmişdim. Elə bu sənətdə səbr, hövsələ, həssaslıqdan başqa bir də sifarişçilərlə dil tapmağı bacarmaq da mühüm məsələdir", – deyə Saleh söhbət açır.

Baş geyimi ustası buxardan çıxardığı papağın kənarlarını əlindəki çəkiclə döyəcləyərək deyir: "Sifarişdən asılı olaraq hər cür papaq tikmişəm: milli papaq, hacı papağı, yarma papaq, Buxara papağı, süleymani papaq, çərkəzi papaq. Hacı papağının iki cür tikirik: birinin kənarlarında xətt olur, o birində yox. Xətlə olan papağı əsasən yaşlılar, ağsaqqallar, xətsiz olanı cavanlar qoyur. Hacı papağını əsasən ruhanilər, mömin adamlar xoşlayır. Tülkü və dovşan dərisindən rus papağı tikilir, kənarları tüklü olur, ortası dərinin tərs üzündən hazırlanır. Biz onu tikmirik, heç indi onu başına qoyan da yoxdur. Gürcü papağının arxası hündür, qabağı yastı olur. Ayrı-ayrı məşhur adamların adı ilə tanınan papaqlar var. Məsələn, stalinka, de qoll papağı. Yaxud moskvalıların qoyduğu papaq "moskviçka" adlanır. İndi təkdənbir Buxara papağı da qoyanlara rast gəlirik. Onu ancaq saz aşıqları və rəqqaslar qoyur. Həmin papaqların hündürlüyü 15-16, bəzən 18 santimetr olur ".

Onun dediyinə görə, qədimi Buxara papaq kişiyə sanki əzəmət və yaraşıq bəxş edir. Təəssüf ki, indi onu sifariş verənlər çox azdır. Son illər əsasən yun və pambıq parçadan Bakı papağı deyilən baş geyimi daha çox yayılıb. Xüsusilə "xuliqanka" adlanan papaqlar indi dəb düşüb.



Onun da ortasının səkkizguşəli tikilməsini sifariş verirlər.

Papaqçı geyim vasitəsinin hazırlanma prosesi barədə danışarkən deyir: "Əvvəlcə ölçü götürülür, qaba kətan kəsilir, parça biçilib tikilir, qəlibə qoyulur, buxara veriləndən sonra artıq onu geyinmək olar. Diametri böyük olan papaqlar var ki, - el arasında onu "aerodrom" adlandırırlar - 3 saata hazırlamaq olur. Amma deyək ki, qədimi papaqların hazırlanması üçün üç-dörd gün vaxt lazım olur, çünki o əl işidir, tikilib hazırlanması üçün daha çox zəhmət çəkilir. Bu heç də kənardan göründüyü kimi, rahat və asan iş deyil. Papaq tikmək geniş səbr, həssaslıq və diqqət tələb edən işdir".

Onun işlədiyi sex əvvəllər paytaxtın Sabunçu qəsəbəsində fəaliyyət göstərib. Üç il əvvəl "Bakı Abadlıq Xidməti" MMC tərəfindən Balaxanı qəsəbəsində aparılan yenidənqurma işlərindən sonra sex indi yeni ünvana köçüb.

Dərzi papağı necə qorumaq barədə də öz tövsiyəsini verdi: "Çit torbanın içinə naftalin, yovşan və ya tütün atıb papağı onun içinə qoymaq, sonra ağzını möhkəm bağlayıb asmaq lazımdır. Onda papaq korlanmaz və xarab olmaz. Geyilməyən, istifadə edilməyən papağı mütləq asmaq lazımdır. Dəri papaq qara-yağışa düşəndə onu qətiyyən sobanın yanına qoyub qurutmaq olmaz. Yaxşı olar ki, bir-iki dəfə onun suyunu çırpıb qurumağını gözləyəsən".

"İndi cavanlar bu sənətə gəlmir, onu öyrənmək istəmirlər. İndiyədək bir neçə nəfərə bu sənəti öyrətmişəm, ancaq heç biri qalıb işləmir, başqa peşənin dalınca gedirlər", - deyə Saleh İbrahimov təəssüflənir.

Təcrübəli papaqçının peşəsinin sirlərini öyrətdiklərindən biri də oğlu 29 yaşlı Rəhimdir. Onun haqqında isə belə dedi: "Maşallah olsun, Rəhim ata-baba sənətini çox yaxşı öyrənib, yaxşı da sənətkardır. Peşəyə də həvəsi var".

Deməli, papaq da var, papaq altda oğlanlar da...

***Süleyman QARADAĞLI***

## Ukrayna–Azərbaycan poçt markası

**Ukrayna–Azərbaycan dostluğu şərəfinə Lvovda "Güc birlikdədir" seriyasından buraxılan poçt markasının təntənəli şəkildə möhürlənməsi mərasimi keçirilib. Poçt markaları seriyası müharibə zamanı Ukraynaya kömək edən ölkələrə həsr olunub.**




Markanın möhürlənməsi mərasimində "Ukrpoçta" Səhmdar Cəmiyyətinin qərb regionunun biznesinin inkişafı üzrə direktoru Yevgeni Savçuk bildirib ki, marka Ukrayna və ona humanitar yardım göstərən Azərbaycan arasında dostluq münasibətlərinə həsr olunub.

**XQ**

# Naftalan: həm səyahət, həm təbabət

## Turistlərin yarısı xaricdən gələnlərdir

**Turizm xidmətinin keyfiyyətini daha da yaxşılaşdırmaq məqsədilə Naftalan Şəhər İcra Hakimiyyəti Dövlət Turizm Agentliyinin Gəncə Regional İdarəsinin əməkdaşları ilə birlikdə otel və müalicə mərkəzlərində rəy sorğusu keçirib.**



Azərbaycan, rus və ingilis dillərində hazırlanmış anket-sorğunun aparılması Beynəlxalq Turizm Mərkəzi olan Naftalanda xidmət səviyyəsinin müəyyən edilməsi və yaxşılaşdırılması məqsədi daşıyır, şəhərin turizm potensialının güclü və zəif tərəflərini təhlil etməyə də imkan verir.

Sorğu şəhərdə istirahət edən və müalicə alan 100-dən çox turist arasında aparılmışdır ki, onların da 55 faizini yerli, 45 faizini isə xarici turistlər təşkil etmişdir. Xarici turistlər arasında hazırda Rusiyadan gələnlər 55 faiz, Qazaxıstan, Özbəkistan, Belarus və Ukraynadan olanlar isə 45 faizdir. Maraqlıdır ki, turistlərin 62 faizi Naftalana ilk dəfədir ki, gəlir. Bundan əlavə, onların 22 faizi ildə bir dəfə, 16 faizi isə ildə bir neçə dəfə gələnlərdir.

Naftalan müalicəsi müddəti olduğu üçün burada 8-14 gün qalmağı planlaşdıran turistlər daha çoxdur və başqa sözlə, gələnlərin 73 faizini təşkil edir. Sorğunun nəticəsindən aydın olmuşdur ki, bu gün beynəlxalq turizm mərkəzi olan Naftalan yerli və xarici qonaqlarda xoş təəssürat yaratmış, turizm obyektlərinin xidmət səviyyəsi və yerləşdirmə ilə bağlı fikrə "razıyam" deyənlər 86 faiz təşkil etmişdir.

Naftalanın abad, təmiz və səliqəli saxlanılması vəziyyəti ilə bağlı sualı 93 faiz turist əla və yaxşı olaraq qiymətləndirmiş, digər 7 faiz isə otelə yeni gəldiyini, şəhərlə hələ tanış olmadıqlarını qeyd etmişlər.

Rəy sorğularının keçirilməsi mövsümə uyğun olaraq davam etdiriləcəkdir.

***Hamlet QASIMOV***
***XQ-nin bölgə müxbiri***



# Ağalıda işsiz qalmayacaq

**Yarmarka Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə gerçəkləşib. Xəbəri mətbuata agentliyin əməkdaşı açıqlayıb.**

Məlumatda qeyd edilir ki, tədbirdə aktiv məşğulluq tədbirində dövlət və özəl sektordan olan 26 işəgötürən iştirak edib və müxtəlif istiqamətlər üzrə 253 vakansiya təqdim olunub.

Bildirilib ki, Böyük Qayıdış proqramı çərçivəsində diqqətdə saxlanılan əsas məsələlərdən biri də işəgötürənlərin kadrlara olan ehtiyaclarının ödənilməsidir.

Yarmarkaya qatılan sakinlərə vakansiyalar, iş öhdəlikləri haqqında məlumat verilib, müraciət edən şəxslərin CV-ləri qəbul edilərək nəzərdən keçirilib, uyğun namizədlərin qeydiyyatı aparılıb.

Yarmarka iştirakçılarına agentlik tərəfindən azad olunan ərazilərdə icra edilən aktiv məşğulluq tədbirləri ilə bağlı məlumat verilib.

**XQ**

**Hava**



# Abşeronda yağmursuz, bölgələrdə yağıntılı və dumanlı...

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən aprelin 06-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var.***

Səhər bəzi yerlərdə duman. Şimal-qərb küləyi əsəcək. Gecə 6-11°, gündüz 13-18° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman əsəcək. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 7-11°, gündüz 15-20°, dağlarda gecə 0-5°, gündüz 5-10° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

**Sağlamlıq**

# Pomidor damarlara "süpürgə" çəkir

**Tomat şirəsi ürək-damar sağlamlığını yaxşılaşdırmağa kömək edir. Mütəxəssislər bildirirlər ki, pomidorda olan likopen həm qadın, həm kişilər üçün antixərçəng və damar sistemini sağlamlaşdıran maddə kimi təsdiqini tapıb.**




Likopen pomidora bütünlüklə qırmızı rəng verən maddədir. Özü də ən faydalı pomidor çox yetişmiş, yumşalmış, tünd qırmızı pomidorlardır. Pomidoru gün altında qurudub pomidor qurusu hazırlayırlar. O, xüsusilə faydalıdır.

Bundan başqa pomidorları şirəçəkəndən keçirib, təzə şirəsini, yaxud tomat şirəsini içmək damarları açır, ödqovucu xassəsi ilə qaraciyəri toksinlərdən azad edir. Eyni zamanda, şirə, bədəndən sərbəst radikalları çıxarır, hüceyrələri yeniləyir.

Pomidor şirəsinin orqanizmə bu qədər faydaları olmasına baxmayaraq, onun zərərli təsirləri də var. Belə ki, qastroenteroloqlar həm kiçik yaşlı uşaqlara, həm də mədə reflüksü olanlara pomidor yemək və tomat şirəsi içməyin ağır nəticələr verə biləcəyini deyirlər.

Onların tövsiyələrinə görə, pomidor duzsuz və əlavəsiz yeyilməlidir.

***Z.HÜSEYNLİ***
***XQ***

✓ *"Dream Sport Project" MMC-yə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır. VÖEN– 1505475001*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 3869 |
| SİFARİŞ | 713 |
| QİYMƏTİ | 60 qəpik |

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00